# Naxçıvan gömrüyündə şok özbaşınalıq...

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№36 (3327) 24 Sentyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiyməti: 60 qəpik

ANA XƏBƏR



## Şəkər xəstələri üçün ayrılan dərmanlar satılır?

# Dünyanı xofa salan "peycer əməliyyatı"...

Daha hansı ölkədə peycerlər, elektromobillər, skuterlər, elektrobuslar, ağıllı smartfonlar və s. kütləvi şəkildə partladıla bilər?!




GÜNÜN NƏBZİ

Xəbər

## "Sərhədlərin bağlı olması bizi böyük fəlakətlərdən xilas etdi"



Prezident İlham Əliyev: "Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər aparılır..." 2

Xəbər

## Milli Məclisin ilk toplantısı keçirildi

Sahibə Qafarova yenidən sədr seçildi, müavinləri isə dəyişdi... 2

Cəmiyyət

## "Dövlətimizə qarşı bu cür ittihamlar yolverilməzdir"

ADP ABŞ Konqresində müzakirəyə çıxarılan "Artsax gəlirlərinin bərpası Aktı"na etiraz etdi 4

Ölkə

## Elmar Vəliyevin oğlu qazinin torpağını zəbt edib

"Mənə deyirlər ki, Elmir Vəliyev sifarişlə adam öldürəndir, ondan uzaq dur" 6

Hüquq

## "Baba Rzayevin qardaşı bizi təhdid edir..."

Astara sakini "Azərenerji" ASC prezidentinin qardaşı Rahib Rzayevdən şikayətçidir 7

Layihə

## Valideyn-uşaq münasibəti necə olmalıdır?



Psixoloq Vəfa Rəşidova: "Valideyn uşağına şəxsiyyət kimi baxmalıdır" 12

Xəbər

## Sabiq nazir məmurları sərt tənqid etdi



"Bu, hakimiyyətin və ölkəmizin imicinə zərər gətirir" 2

Hüquq

## Borcunu tələb etdiyi üçün həbs olundu

5 ildən çoxdur ki, qanunsuz olaraq həbsdə saxlanıldığını iddia edən Ədalət Məmmədov tərəfindən "Hürriyyət"ə növbəti məktub

5 ildən çoxdur ki, Penitensiar Xidmətin 9 saylı Cəzaçəkmə Müəssisəsində günahsız yerə cəza çəkdiyini iddia edən Məmmədov Ədalət Məhərrəm oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına növbəti şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Prezident İlham Əliyevə, eləcə də digər aidiyyəti qurumların rəhbərlərinə müraciət edir. Həmin müraciəti olduğu kimi dərc edirik... 7

Ölkə

## Sabunçuda şok olay

Yeni "yığım kampaniyası"na başlayan icra başçısı vətəndaşların torpaqlarını təkrar onlara satır

Sabunçuda Azərbaycan tarixində misli bərabəri olmayan biabırçılıq yaşanmaqdadır. Belə ki, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev bir neçə aydır ki, yeni "yığım kampaniyası"na başlayıb. Bu sözlər Sabunçu sakini Nazim Əliyevin "Hürriyyət"in elektron poçtuna göndərdiyi yazıdandır. Rayon ərazisindəki bütün torpaqları son qarışına kimi sataraq 100 milyonlarla vəsait əldə edən Adil Vəliyev, bugünlərdə vətəndaşların əmlakına kütləvi şəkildə əl qoymağa başlayıb. 6

SİZİN ÜÇÜN QƏZET
# Hürriyyət
№36 (3327) 24 Sentyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

# Qadın qubernator 60-a yaxın sevgilisini işə götürdü...



## Heç vaxt evlənməyən və övladı olmayan məmur barəsində həbs qərarı verilib

**Çində məhkəmə 60-a yaxın sevgilisini işə götürən yüksək vəzifəli məmurun həbsinə qərar verib. Xarici KİV-lər xəbər verir ki, Çində yüksək səs-küylü məhkəmə işində cavabdeh şəxs rəsmi mövqeyindən istifadə edərək 58 eşq macərası yaşamış Quyçjou əyalətinin Tsyanan prefekturasının keçmiş qubernatoru və partiya katibinin müavini Çjun Yan olub.**

Məmur 58 tabeliyində olan işçi ilə cinsi əlaqədə olmaq və təqribən 60 milyon yuan və ya 8,5 milyon dollar rüşvət almaq da daxil olmaqla, bir sıra pozğunluqlara görə 13 il həbs cəzasına məhkum edilib və 1 milyon yuan və ya təxminən 140 min dollar cərimə olunub.

Məlumdur ki, 52 yaşlı Çjun Yan sadə ailədə böyüyüb, universitetdə tarix ixtisası üzrə oxuyub, sonra 22 yaşında Çin Kommunist Partiyasının sıralarına qoşulub. Zamanla Çin Xalq Nümayəndələri Konqresinin deputatı olub.

Cazibədar görünüşünə görə mətbuatda onu tez-tez "gözəl qubernator" adlandırıblar. Çjun heç vaxt evlənməyib və övladı olmayıb. O, kənd təsərrüfatında uğurları ilə tanınıb. Lakin tezliklə məlum olub ki, o, vəzifə səlahiyyətlərindən istifadə edərək dövlət sərmayəsi bəhanəsi ilə rüşvət alıb, müəyyən şirkətlər üçün gəlirli müqavilələr bağlayıb.

Xüsusilə, yüksək texnologiyalı zonada yaxın münasibətdə olduğu bir iş adamı üçün 170 min kvadratmetrlik tikinti layihəsini təsdiqləyib. Eyni zamanda, sosial dairəsinə daxil olmayanlarla müqavilələrdən imtina edib.

Çjun Yan tabeliyində olanlarla sevgi romanlarına başlayıb və onlarla vaxt keçirib, bunu iddia edilən "iş vaxtından artıq iş" və "iş səfərləri" ilə izah edib. Bəzi kişilər təklif etdiyi üstünlüklərə görə, bəziləri isə onun gücündən qorxaraq onun tərəfdaşı olmağa razılaşıblar.

Çin sosial şəbəkəsi "Weibo"-da şərhçilər Çjunun valideynlərinin yəqin ki, ən çox məyus olduqlarını qeyd ediblər. Bir istifadəçi yazıb: "Onun yazıq valideynlərinə yazığım gəlir. Təsəvvür edirəm ki, onlar necə kədərlidir və ürəkləri qırılıb".

## Sevgilisini parçaladı, qalıqlarını turşu çəlləyinə qoydu

**36 yaşlı Sankt-Peterburq sakini avtomobilində plastik çəlləkdən qadın qalıqları aşkar edildikdən sonra saxlanılıb.**





Lent.az-ın xarici mediaya istinadla məlumatına görə, şübhəlinin keçmiş həyat yoldaşının ifadəsinə görə, o, 21 yaşlı sevgilisinin ürəyinə bıçaq batırıb, sonra isə onu hamamda parçalayıb. Dəlillərdən yaxa qurtarmaq üçün kişi sevgilisinin qalıqlarını çəlləyə qoyub, içinə turşu doldurub və şəxsi avtomobilində gizlədib.

O, baş verənləri keçmiş həyat yoldaşına səsli mesajla bildirib. O, ona qayıtmasa, onu da eyni şeyi edəcəyi ilə hədələyib.

Qorxuya düşən qadın polisə müraciət edib. Hadisə yerinə gələn polis əməkdaşları yaxınlıqda dayanmış avtomobildə çəllək aşkar ediblər. Peterburq sakini başqa rayonda saxlanılıb. Faktla bağlı cinayət işi açılıb.

Əyləncə səhifəsi

## Feyxoanın insan sağlamlığına faydaları



**Adam olmaz ki, cənub bölgəsinin incisi olaraq dillərə düşən feyxoa meyvəsini sevməsin. Bu sevgiyə dəyər. Çünki feyxoa ləzzətli, dadlı meyvə olduğu kimi, insan sağlamlığına da faydası çoxdur. Əsasən zob xəstəliyin qənimidir. Onu yemək, eləcə şirəsini içmək bu xəstəliyin inkişafına mane olur. 1 kiloqram təzə feyxoada 2 milliqramdan 10 milliqrama qədər yod vardır. Məhz buna görə də insan orqanizmdə yod çatışmazlığı nəticəsində yaranan hər bir xəstəliyə onunla çarə tapmağa dəyər.**

İndi cənub bölgəsində zob xəstəliyini feyxoadan alınan məhlul ilə müalicə etmək geniş yayılıb. Məhlulun hazırlanma qaydası da çox asandır. Belə ki, 1 kiloqram şəkər tozunu həmin miqdarda feyxoanı ət çəkən maşından keçirib şüşə qaba tökürlər. Feyxoa şirəsini tam buraxandan sonra hazır məhluldan səhər və axşam hər dəfə 1 xörək qaşığı qəbul edilir. 10 gün qəbul edib, 10 gün ara verməklə müalicəni aparmaq zoba son qoyur.

Stenokardiya xəstəliyin müalicəsində feyxoanin xeyri vardır. Ateroskleoz zamani isə xəstəliyin inkişafını ləngidir, damarlara elastiklik verir. Həmçinin bu meyvəni yeməklə arterial təzyiq qaydaya düşür, insanın immun sistemi möhkəmlənir, bağırsaqların fəaliyyəti yaxşılaşır. Eyni zamanda feyxoadan hazırlanan çay soyuqdəymənin dərmanıdır. Belə ki, qabıq qarışıq 3 feyxoa doğranıb üzərinə bir stəkan qaynar su əlavə olunur. 20 dəqiqə dəmə qoyduqdan sonra 1 çay qaşığı bal əlavə edilib içilir. Belə dəmləməni gün ərzində iki-üç dəfə qəbul etmək lazımdır. Onun yarpaqlarını qaynar suda dəmləyib qarqar etdikdə diş ağrısinin qarşısını alır. Eləcə damaqların iltihabı, qanaması zamanı yaxşı effekt verir.

Feyxoanın daha bir xüsusiyyəti odur ki, ətində və xüsusilə də qabıqlarında "katexin", "antosinlər" fenol birləşməsi çoxdur. Bu güclü antioksidantlar olmaqla xərçəng xəstəliyinin profilaktikası üçün çox vacib olan maddədir.

Onu da bildirim ki, feyxoa meyvəsi on doqquzuncu əsrdən elmə məlumdur. Təbiətşünas alimi Joao da Silva Feyxounun kəşfidir. Onun şərəfinə bitkiyə feyxoa adı verilib. Biz də isə bu gözəl və xeyirli meyvə cənub bölgəsində yetişir.

**Zəfər ORUCOĞLU**

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Milli Məclisin ilk toplantısı keçirildi



**Dünən 1 sentyabr növbədənkənar parlament seçkilərində formalaşmış VII çağırış Milli Məclisin ilk toplantısı keçirilib. Hurriyyet.az xəbər verir ki, ilk iclasda Prezident İlham Əliyev iştirak və çıxış edib. Bundan sonra Milli Məclisin rəhbərliyi seçilib.**

## Sahibə Qafarova yenidən sədr seçildi, müavinləri isə dəyişdi...

Beləliklə, Sahibə Qafarova yenidən Milli Məclisin sədri seçilib.- Bu barədə məsələ VII çağırış parlamentin ilk iclasında səsverməyə çıxarılıb. Qeyd edilib ki, Yeni Azərbaycan Partiyası tərəfindən deputat Sahibə Qafarovanın Milli Məclisin sədrliyinə namizədliyi irəli sürülüb. S.Qafarova Yeni Azərbaycan Partiyasının Sədrinə və partiya üzvlərinə minnətdarlığını bildirib.

Məsələ səsverməyə çıxarılaraq qəbul edilib. Bununla da S.Qafarova VII çağırış Milli Məclisin sədri seçilib.

Spikerin müavinləri dəyişdig

Daha sonra VII çağırış Milli Məclis sədrinin müavinləri seçilib.

Belə ki, deputat Əli Əhmədov Milli Məclis sədrinin birinci müavini, deputatlar Ziyafət Əsgərov, Musa Qasımlı və Rafael Hüseynov sədrin müavinləri seçiliblər.

Qeyd edək ki, indiyədək Milli Məclis sədrinin üç müavini ( I müavin və iki müavin) olub.

Komitə sədrlərig

VII çağırş Azərbaycan Milli Məclisinin rəhbərliyi ilə yanaşı daimi komitələrində də dəyişiklik olub. Bəzi millət vəkilləri postlarında qalsalar da, bir neçə komitəyə yeni sədrlər seçilib. Bir neçə vəzifəli deputat isə yeni tərkibdə sıravi deputat kürsüsündə oturacaq.

Beləliklə, əvvəlcə rəhbərliyində dəyişiklik olmayan komitələri təqdim edirik:

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi Sadiq Qurbanov;

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi - Əli Hüseynli;

İnsan hüquqları komitəsi - Zahid Oruc;

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi - Səməd Seyidov;

Səhiyyə komitəsi - Əhliman Əmraslanov;

Ailə, qadın və uşaq məsələləri komitəsi - Hicran Hüseynova;

Gənclər və idman komitəsi - Şahin Hüseynov;

Regional məsələlər komitəsi - Siyavuş Novruzov;

Əmək və sosial siyasət komitəsi - Musa Quliyev;

Aqrar siyasət komitəsi - Tahir Rzayev.

Sədrləri dəyişdirilən komitə sədrləri:

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi - Arzu Nağıyev;

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi - Azər Əmraslanov;

Elm və təhsil komitəsi - Anar İsgəndərov;

İctimai birliklər və dini qurumlar komitəsi - Fazil Mustafa;

Mədəniyyət komitəsi - Polad Bülbüloğlu.

Kimlər "vuruldu"?

Qeyd edək ki, Arzu Nağıyev bu postda Milli Məclis sədrinin müavini seçilmiş Ziyafət Əsgərovu, Anar İsgəndərov Bəxtiyar Əliyevi, Azər Əmraslanov Tahir Mirkişilini, Fazil Mustafa eks vitse-spiker Fəzail İbrahimlini, Polad Bülbüloğlu isə Fazil Mustafanı əvəzləyib.

Xatırladaq ki, ötən ilin sentyabrında deputat Qənirə Paşayeva vəfat etdikdən sonra onu bu posta müavini Fazil Mustafa əvəz etmişdi. Siyahıdan göründüyü kimi, F.Mustafa İctimai birliklər və dini qurumlar komitəsinin sədri seçilib.

Beləliklə, Milli Məclisdə deputat seçilsələr də, vitse-spiker və komitə sədri postlarını itirən üç şəxs var:

Fəzail İbrahimli həm vitse-spikerlkdən, həm də İctimai birliklər və dini qurumlar komitəsi sədrliyindən gedərək sıravi deputat kimi fəaliyyətini davam etdirəcək.

Bəxtiyar Əliyev Elm təhsil komitəsində sədrliyini Anar İsgəndərova təhvil verdikdən sonra vəzifəsiz deputatlardan biri olacaq.

Milli Məclisdə ən böyük itki yaşayanlardan biri də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədrliyi ilə vidalaşan Tahir Mirkişilidir. Seçki prosesi dövründə yerli media onun bitərəflərin namizədi kimi vitse-spikerliyə iddialı olduğunu yazsa da, göründüyü kimi, o, heç komitə sədri də seçilə bilmədi.

**Hazırladı: KƏNAN**



## "Quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi"

### Prezident İlham Əliyev: "Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər aparılır..."

**"Mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər aparılır və bu hərəkətlərin qarşısı alınır".**

Bunu Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında deyib.

Sərhədlərimizin qorunmasının bizi xarici risklərdən qoruyacağını qeyd edən dövlət başçısı bildirib ki, Azərbaycanda daxili risklər yoxdur.

"Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir", - deyə Prezident diqqətə çatdırıb.

## Sabiq nazir məmurları sərt tənqid etdi

### "Bu, hakimiyyətin və ölkəmizin imicinə zərər gətirir"



**Azərbaycanda "yol mədəniyyəti" ilə bağlı ciddi problemlərin mövcud olduğu heç kimə sirr deyil. Bu problem təkcə hərəkətin təşkili deyil, hərəkət iştirakçılarının məsuliyyətsizliyi, qaydalara məhəl qoymaması, özbaşınalığı, bəzən isə hətta harın davranışında özünü ifadə edir. Bu baxımdan məmurlar, onların yaxınları və Yol Polisində "əlaqələri" olan digər sürücülər xüsusi seçilirlər.**

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bu mövzuyla bağlı maraqlı paylaşım edib. Rus dilində dərc etdiyi paylaşımında sabiq nazir məmurların "yol hərəkəti tərbiyəsizliyi"ndən gileylənib: "COP 29 yaxınlaşır. Hər yerdə abadlıq işləri gedir və bu, gah cəmiyyətimiz tərəfindən bəyənilir, gah da tənqid olunur. Dünyanın hər yerindən gələn qonaqlara "üçüncü dünya" deyil, gələcəyə doğru addımlayan, ən yüksək standartları tətbiq edən ölkə olduğumuzu göstərmək istəyimiz normaldır. Yaxşı, iddialı hədəfdir...

Amma yollarımızda hökm sürən mənzərə onu göstərir ki, bir çoxları, o cümlədən "bürokratik planktonlar" özlərini elə həyasızcasına və təkəbbürlü aparırlar ki, şərti qonaq xidməti(vəzifə) maşınında necə "möcüzə"nin oturduğunu dərhal anlayacaq. "Bəy karetaları"nın(məmurların xidməti avtomobilləri nəzərdə tutulur-red.) sürücüləri daim işıq işarələri verir, sürət həddini nümayişkaranə şəkildə pozurlar və sair. Onları təqlid edən şərti JEK rəisi, yaxud yol polisi serjantı və onların qohumlarına qədər hamı özünü önəmli dövlət xadimi kimi göstərir. Bu natamamlıq kompleksinin təzahürləri o qədər vulqar görünür ki, vətəndaşlarda ədəbini itirmiş bu cür "xalqın qulluqçularına" qarşı narazılıq və qəzəb hissi yaranır. Onların, yumşaq desək, "yol hərəkəti tərbiyəsizliyi" və bunun təzahürləri, təəssüf ki, hakimiyyətin və ölkəmizin imicinə xələl gətirir".



“Gömrük işçisi dedi ki, maşın Sədərək Gömrük Məntəqəsindən Naxçıvana daxil olan zaman "minik maşını" kimi sənədləşdirilib, ona görə, bizim onu yük maşını kimi qeyd etməyə səlahiyyətimiz çatmır. Minik maşını da sərhədi keçə bilmədiyi üçün sizə çıxış verə bilmirik"

# Naxçıvan gömrüyündə şok özbaşınalıq

## Qorxmaz Məmmədovun yük avtomobili qəsdən “minik maşını” kimi sənədləşdirilib; məqsəd onun quru yolla çıxışının qarşısını almaq olub

Naxçıvan Muxtar Respublikasında (MR) qeydiyyatda olan, hazırda Bakıda yaşayan Məmmədov Qorxmaz Hüseyn oğlu "Hürriyyət"in redaksiyasına gələrək, qarşılaşdığı qanunsuzluqlardan bəhs edib. Şikayətçi deyir ki, bir müddət əvvəl Bakı qeydiyyatında olan 77-LK-564 dövlət nömrəli "Mercedes Vito" markalı yük maşını ilə Naxçıvana getməyi qərara alıb. Quru sərhədi ilə ölkədən çıxa bilmədiyi üçün maşınını "avtovoz"a yükləyərək Gürcüstana göndərib, oradan isə özü idarə edərək, Türkiyəyə yola düşüb. Təxminən 10-15 gün qardaş ölkədə qaldıqdan sonra Sədərək Gömrük Məntəqəsi vasitəsilə Naxçıvana daxil olub. Bu zaman, özünün də xəbəri olmadan, sənədləşmədə "Mercedes Vito" markalı yük avtomobili "minik maşını" kimi qeyd olunub. Elə problem də bundan sonra başlayıb...

Qorxmaz Məmmədov deyir ki, sözügedən avtomobil onun özünə məxsus olsa da, rəsmi olaraq qardaşı Məmmədov Elçin Hüseyn oğlunun adına qeyddiyyatdadır. O, həmin avtomobili etibarnamə ilə idarə




edir. Şikayətçinin sözlərinə görə, Sədərək Gömrük Məntəqəsində ona məxsus yük avtomobilinin ”minik avtomobili” kimi qeyd olunmasından xəbərsiz halda, Naxçıvana daxil olub. Bir neçə gün sonra isə İran üzərindən Bakıya qayıtmaq istəyib.

”Bilirəm ki, mənim maşınım yük maşınıdır, rahat gedib-gələcəm. Odur ki, bir neçə gün sonra İrandan keçməklə Bakıya gəlmək istədim. Maşın da boş idi. Culfa Gömrük Məntəqəsinə gəldim, günorta saat 15:00-dan gecə saat 12-dək növbədə saxladılar. Nəhayət, hamı kimi, mən də sənədləri təqdim etdim. Lakin 1 saat keçsə də, cavab çıxmadı. Sonra sənədləri gətirib dedilər ki, səhər saat 9-da gəlin, sərbəst keçəcəksiniz. Soruşdum ki, indi niyə keçə bilmirəm, problem nədir? Gömrük işçisi dedi ki, maşın Sədərək Gömrük Məntəqəsindən Naxçıvana daxil olan zaman ”minik maşını” kimi sənədləşdirilib, ona görə, bizim onu yük maşını kimi qeyd etməyə səlahiyyətimiz çatmır. Minik maşını da sərhədi keçə bil-




mədiyi üçün sizə çıxış verə bilmirik”, - deyə Q.Məmmədov bildirdi.

Şikayətçi hesab edir ki, Sədərək Gömrük Məntəqəsindən keçən zaman onun yük maşını məqsədli şəkildə ”minik avtomobili” kimi qeydiyyata alınıb: ”Bunu qəsdən edirlər ki, həmin maşın bir daha quru yolu ilə Naxçıvan sərhədindən heç yerə çıxa bilməsin. Görünür, Türkiyəyə gedib-gələnlərin sayını azaltmaq istəyirlər. Çünki nə qədər az maşın gedib-gələrsə, daha az məhsul daxil olar. Hansı ki, burda da əsasən kiçiktutumlu yük maşınlarından söhbət gedir. Üstəlik, onlara da vaxt qoyurlar ki, ay ərzində ən çoxu 2 dəfə gedib-gələ bilərsiniz”.

Qorxmaz Məmmədov məlumat verir ki, Naxçıvandan yük maşınlarının istər Türkiyə, istər də İrana keçməsinə qanun çərçivəsində icazə verilir: ”İnsanlar acından ölməsin deyə ərzaq məhsulları gətirməyə məcburdurlar. Onlar geri qayıdarkən Türkiyə gömrüyündə heç maşına baxmırlar ki, içərisində nə var. Bizim tərəfə keçəndə naxçıvanlıların başına oyun açırlar. Gətirdikləri məhsulların hərəsini bir yana atırlar, nəticə etibarilə vətəndaşlar Naxçıvana başını yola-yola keçir”.

Şikayətçi deyir ki, Culfa Gömrük Məntəqəsi əməkdaşının dediyi vaxtda, yəni səhər saat 9-da yenidən sərhədi keçmək istəyib: ”Deylən vaxtda yenidən gömrük məntəqəsinə gəldim. Lakin bu dəfə də bildirdilər ki, sənəd düzəlməlidir, bu cür keçə bilməyəcəksiniz, Gömrük Komitəsinə müraciət edin. Bu zaman dedim ki, onda mənə rəsmi kağız verin, hansı səbəbdən sərhədi keçə bilmədiyimi bilim. Bildirdilər ki, biz heç bir kağız verə bilmərik. Sonra isə bildirdilər ki, əslində, sizin maşınınız Bakıya getmək üçün yük avtomobilinə yüklənməlidir, yalnız o vəziyyətdə apara bilərsiniz”.

Q.Məmmədovun sözlərinə görə, ikinci gün də sərhədi keçə bilmədiyi üçün Naxçıvan Gömrük Komitəsinə gedib: ”Rəis Vüqar Əliyevlə görüşmək istədiyimi bildirdim. Lakin onunla görüşmək mümkün olmadı. Dedilər ki, sən ”minik” sözünü sildirmək üçün Bakıya gedib, Dövlət Gömrük Komitəsinə müraciət etməlisən. Əlavə etdilər ki, ”minik” sözünü sildirdikdən sonra, eyni vaxtda beynəlxalq yükdaşıma sertifikatı da almalısan...”.

Bütün bunlardan sonra Naxçıvana getdiyinə peşman olan Qorxmaz Məmmədov maşınını TIR-a yükləyib, özü isə təyyarə ilə Bakıya qayıdır. ”Bilsəydim ki, başıma bu oyunu açacaqlar, heç Naxçıvana getməzdim”, - deyən şikayətçi vurğulayır ki, qarşılaşdığı haqsızlıqlarla bağlı tezliklə Dövlət Gömrük Komitəsinin rəhbərliyi ilə görüşməyə cəhd edəcək.

“Görünür, Türkiyəyə gedib-gələnlərin sayını azaltmaq istəyirlər ki...”

Ümumiyyətlə, son vaxtlar gömrükdə vətəndaşların çoxsaylı qanunsuzluqlarla üzləşdiyini deyən Q.Məmmədov bütün bunlarla bağlı qəzetimizə geniş açıqlama verib. Növbəti yazımızda bu haqda məlumatları oxucularımıza təqdim edəcəyik. Bizi izləyin.

**”Hürriyyət”**

**Redaksiyadan: Qeyd olunan faktlarla bağlı qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Aksiz markasız külli miqdarda siqaretlər aşkarlandı



**Aksizli Mallar üzrə Baş Gömrük İdarəsinin Əməliyyat-Təhqiqat şöbəsinə daxil olmuş məlumat əsasında Bakı şəhəri, Binəqədi rayonu ərazisində əməliyyat tədbirləri keçirilib.**

Dövlət Gömrük Komitəsindən Stopnarkotik.az-a bildirilib ki, əməliyyat nəticəsində yaşayış sahəsindən Azərbaycanın aksiz markası ilə markalanmayan 53 adda 30 360 ədəd siqaret aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.



Eldəniz QULİYEV

# Qorxunu qorxutmaq...

Sözüm o kəslərədi ki: "-Tək mənimI? nə dəyişəsidi, ağrımayan başıma niyə yaylıq bağlayım ki?.." deyirlər.

Mismar batmayan asfalt qatını dəlib çıxan zərif ot ləçəkləri görmüsüzmü? Əminəm ki, əksəriyyət görməyib. Yox, əzizlərim, siz sadəcə baxmısınız və...görməmisiz. Bu İlahi möcüzəni GÖRƏ BİLSƏYDİNİZ, onda çox mətləbləri anlayardınız.

Onda, baxdığınız şeyləri görməkdən qorxub-çəkinməzdiniz və acı reallıqları dilə gətirmək də canınıza bunca vicvicə salmazdı...

Biz niyə və nədən qorxuruq? Bu nə fenomendi belə, yaxamızdan yapışıb, əl çəkmir?..

Şahidi olduğumuz neqativləri, başımıza gələn, (ya gətirilən) haqsızlıqları niyə dilə gətirməkdən xoflanırıq?.. Niyə axı "pıqq" eləyib bizi qorxudanların qabağında heç "mıqq" da eləyə bulmirik?..

Əxlaqa və mental dəyərlərə zidd həyat tərzi sürən bəzi məmurların oğruluğunu, qudurğanlığını, sadə vətəndaşları adam yerinə saymadıqlarını söyləmək, yanlış və ziyanlı hərəkət etdiklərini qətiyyətlə dilə gətirmək, nədən bunca qorxulu sayılsın axı?

Niyə, nə üçün və nədən haqq sözünü, dürüst fikiri, ədalətli rəyi və sairəni demək bu qədər çətin, bu qədər təhlükəli olsun ki?..

Misal üçün, beş-on nəfər yığışıb ölkə başçısına müraciət eləsək ki, "Hörmətli, izzətli, dəyərli cənab Prezident, sizin təyin etdiyiniz bəzi böyük-böyük vəzifəli məmurlar, sözün əsil mənasında özbaşınalıq edirlər. Məsul vəzifə olaraq onlara həvalə edilmiş işlərə diqqət ayırmaq, ölkə vətəndaşlarının maddi və mənəvi rifahı yolunda çalışmaq əvəzinə... "at oynatmaqla", bəzi hallarda isə,- daha pis,- Bağdaddakı kor xəlifənin təqlidini çıxarmaqla məşğul olurlar. Özü də bu, minlərlə, yüz minlərlə insanın gözü önündə baş verir!.." Yaxşı, bunları desək, yazsaq, tirajlasaq bizi dar ağacından asacaqlar? Lap tutaq ki, asdılar...amma eyni sözləri, haqlı iradları min nəfər, yüz min, milyon nəfər desə, necə? Belə olsa, məncə, "burnu əzilən" deyənlər yox, həmin o məmur sürüsü olacaq.

Hər hansı bir nazirə, ya icra başçısına üz tutub bəyan eləsək ki, ay müəllim, ay cənab, ay insan, ay adam, səni bu vəzifəyə təyin edəndə məgər tapşırmayıblar ki, adam ol, vətəndaşların qayğısına qal, səlahiyyətlərini aşma, korrupsiya bataqlığında girmə, rüşvətlə işləmə, millətin dərdinə-sərinə əlac qıl, ölkənin gələcək inkişafına xidmət elə?!

Desək ki, sənin əməkdaşların əhalini gözümçıxdıya salır, yalanı palana çevirib camaatın belinə yükləyir... nə olasıdı ki, görən?

Desək ki, ay müdir, ay direktor, ay sədir, ay rəis, sən bu ölkənin əli qabarlı vətəndaşları sayəsində yaşayırsan ey...onlar bu gün olmasa, sən dünəndən olmazsan; əslində sənin heç mığmığa, ağcaqanad, ditdili qədər də dəyərin yoxdu!..

Vallah bu xalq yazıqdı, billah, bu xalq daha yaxşı rəftara, daha yaxşı həyata layiqdi.

Desək ki, ta bəsdirin, artisliyi-filanı qırağa qoyun! Siz bu xalqı sevmirsiniz, ömür boyu sevməmisiniz də... Sevməyiniz başınıza dəysin, heç olmasa... nifrət eləməyin!..

Qorxu! Bu gün qorxu hissi vücudumuzu iflic edib, qanımıza işləyib, ruhumuza hopub, əl-ayağımızı, ağzımızı, tilsimləyib-kilidləyib.Qorxu! Əgər bənni-insan övladı, ilan qabığından çıxan kimi, qıvrılıb bu müdhiş bəladan xilas olmasa, yəni qorxunu qorxudub öz içində öldürməsə, o, ləyaqətlə yaşamaq haqqını bilmərrə itirəcək. Ləyaqətlə yaşaya bilməyəcəksə, deməli, şərəflə də ölə bilməyəcək... Və nəticədə, onun həyatı, olsa-olsa, statistika olacaq, - taleyə çevrilməyəsək!..

Qorxaqlıq! Qorxaqlar nifrətdən də, sevgidən də, kədərdən, sevincdən də, ölümdən, həyatdan da qorxarlar.

Qorxaqlar təşəbbüskarlıqdan, iradədən, qürur və mənlikdən məhrum olarlar.

Nəhayət qorxaqlıq, hər şeydən əvvəl insanın özünə, öz varlığına düşmən kəsilməsi deməkdi. Özünə düşmən kəsilmək isə, Allah-təalaya asi çıxmağa bərabər bir günahdı.

Xatırladıram ki, sual işarəsi də nə vaxtsa nida olub...qorxudanmı, təlaşdan, xofdanmı, yavaş-yavaş əyilib, bükülüb, təzim edib, domuşub, qozbelləşib və sonda - SUALa çevrilib!..

**Qeyd:** QORXU dediyimiz bu zəhrimar şey nədirsə, bu gün bizləri Tanrıya doğru uzanan yoldan sapdırıb-azdırıb... bir başa şeytana tərəf sürükləyir!..

---

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə 20 sentyabr təqviminin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi ilə bağlı dövlət başçısı İ.Əliyevin imzaladığı tarixi sərəncama münasibət bildirib.**



# "Dövlətimizə qarşı bu cür ittihamlar yolverilməzdir"

## ADP hesab edir ki, ABŞ Konqresində müzakirəyə çıxarılan "Artsax gəlirlərinin bərpası Aktı" strateji əməkdaşlıq münasibətlərini pozmağa yönələn cəhdən başqa bir şey deyil

Suverenliyin hər bir xalq üçün nə qədər önəm daşımasına diqqət çəkən partiya yetkililəri bu yolda millətimizin son 30 ildən artıq zaman kəsiyində necə böyük məşəqqətlər yaşamasına, on minlərlə şəhid verməsinə, torpaqlarımızın işğal altında qalmasına baxmayaraq, sonda Azərbaycanın öz suveren hüququnu bərpa etməsindən, yurisdiksiyamıza daxil olan bütün ərazilərimizdə ali hakimiyyətini təmin etməsindən məmnunluğunu ifadə edib, istiqlaliyyətimiz uğrunda canlarını fəda edən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə can sağlığı arzulayıb və bu möhtəşəm tarixi qələbə münasibəti ilə xalqımızı bir daha təbrik edib.

İdarə Heyəti ABŞ Konqresində Azərbaycanın Qarabağa "təcavüzü"ilə bağlı ("Artsax gəlirlərinin bərpası Aktı") aktın müzakirəyə çıxarılması məsələsinə də münasibət bildirib. Ermənipərəst konqresmenlərin iddiasına görə "Azərbaycanın "Artsax" xalqına davamlı hərəkətləri humanitar fəlakət yaradıb və etnik təmizləməyə məruz qalıb və bu səbəbdən Azərbaycanın aktivləri müsadirə edilərək "Artsax" adına yaradılan fonda keçirilməli və Qarabağdan köçkün düşən ermənilərə kompensasiya olaraq verilməlidir". Partiya rəsmiləri bir daha qeyd edib ki, Azərbaycanda yaşamış ermənilərin Qarabağdan köçü etnik təmizlənmə ilə deyil, öz xoş istəkləri ilə və bu proses bütün dünyanın gözü qarşısında, açıq-aşkar şəkildə baş verib. Konqresmenlərə xatırladılıb ki, dövlətimizə qarşı bu cür ittihamlar irəli sürmək yolverilməzdir və ikili standartlara uyğun belə yanaşmalar ABŞ və Azərbaycan arasında 30 ildən artıq davam edən dostluq, strateji əməkdaşlıq münasibətlərini pozmağa yönələn cəhdən başqa bir şey deyil.

İdarə Heyəti bir neçə gün əvvəl Fransa xarici işlər nazirinin Ermənistana səfəri və bu səfər zamanı adı çəkilən ölkəyə hər cür hərbi, siyasi yardımların edilməsi, Qarabağdan köçkün düşən ermənilərə 29 milyon ABŞ dolları məbləğində yardım edilməsi, onların geri qaytarılmasının zəruriliyi ilə bağlı səsləndirdiyi fikirlərə münasibət bildirib və bu fikirlərin heç də Qafqazda sülhə və təhlükəsizliyə xidmət etmədiyini, ölkəmizə qarşı qərəzli xarakter daşıdığını bildirib. Qeyd edilib ki, Qarabağda yaşamış ermənilərin geri qaytarılması yalnız onların Azərbaycan qanunlarına tabe olması, Konstitusiyamızdan irəli gələn vətəndaş öhdəliklərinin yerinə yetirilməsi şəklində baş verə bilər və söhbət geri dönmədən gedirsə onda bu iddianı irəli sürənlər dədə-baba yurdlarından didərgin düşmüş, deportasiyaya məruz qalmış 100 minlərlə Qərbi Azərbaycan soydaşımızın da öz yurdlarına qayıtması, hüquqlarının bərpa edilməsi haqda da düşünməlidir.

> İdarə Heyəti ABŞ Konqresində Azərbaycanın Qarabağa "təcavüzü"ilə bağlı ("Artsax gəlirlərinin bərpası Aktı") aktın müzakirəyə çıxarılması məsələsinə də münasibət bildirib. Ermənipərəst konqresmenlərin iddiasına görə "Azərbaycanın "Artsax" xalqına davamlı hərəkətləri humanitar fəlakət yaradıb və etnik təmizləməyə məruz qalıb və bu səbəbdən Azərbaycanın aktivləri müsadirə edilərək "Artsax" adına yaradılan fonda keçirilməli və Qarabağdan köçkün düşən ermənilərə kompensasiya olaraq verilməlidir"...

İdarə Heyəti ötən həftə Avropa Parlamentində bir qrup deputatın ölkəmizdə insan hüquq və azadlıqlarının pozulması, siyasi məhbus probleminin gündəmdə qalması, söz, mətbuat azadlığına məhdudiyyətlər qoyulması səbəbindən Azərbaycan qazından imtina edilməsi ilə bağlı təşəbbüs ətrafında da müzakirələr aparıb. Partiya yetkililəri Avropa Parlamentində qaldırılan bu məsələnin insan hüquq və azadlıqları ilə bağlı tərəfinin reallığı əks etdirdiyini bildirsə də, Avropa ölkələrinin, Azərbaycan qazını almaqdan imtina etməsi məsələsini Avropa ilə olan ikili əlaqələrimizə qarşı yönəldiyini diqqətə çatdırıb və hakimiyyəti ölkədə insan hüquq və azadlıqları ilə bağlı üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməyə çağırıb.

**Hazırladı: KƏNAN**

# Üçüncü dünya müharibəsinə hazırlıq?



## Böyük güclər Hind və Sakit Okean bölgəsində toqquşur

**Rusiya Ukrayna müharibəsiylə yanaşı strateji tərəfdaşı Çinlə birgə hərbi təlimləri axsatmır. İki dövlətin dəniz qüvvələrinin Sakit Okeanda birgə hərbi təlimləri başlayıb. Rusiya və Çinin döyüş gəmiləri Vladivostokdan dənizə çıxıblar. Rusiya və Çinin dəniz qüvvələrinin artan hərbi təlimləri Amerika Birləşmiş Ştatlarının Hind və Sakit Okean bölgəsində artan fəallığına cavab kimi qiymətləndirilir.**

"Atlas" Araşdırmalar Mərkəzi bildirir ki, Pekinin tələblərinə baxmayaraq, ABŞ Filippində yerləşdirdiyi orta mənzilli raket sistemini geri çəkmək istəmir. Bu sistemlərin regional münaqişədə istifadəsinin mümkünlüyünü sınaqdan keçirilir. ABŞ və Filippinin münaqişə vəziyyətində sistemin orada istifadəsinin mümkünlüyünü və bu mühitdə nə dərəcədə yaxşı işlədiyini sınaqdan keçiriblər. Söhbət ABŞ ordusuna məxsus SM-6 raketləri və 1600 km (994 mil)-dən çox məsafə qət edə bilər "Tomahawks" raketlərini buraxa bilən "Typhon" sistemindən gedir. Çin hədəflərini vura bilən qanadlı raketlərlə təchiz oluna bilən "Typhon" sistemi bu ilin əvvəlində birgə təlimlər üçün gətirilib, ancaq sonra geri qaytarılmayıb.

Çin və Rusiya Vaşinqtonu silahlanma yarışını qızışdırmaqda ittiham edərək, sistemin Hind-Sakit Okean hövzəsində yerləşdirilməsini pisləyiblər. Çin Xarici İşlər Nazirliyi bildirib ki, ABŞ-ın raket sistemlərini yerində saxlamaq planından çox narahatdır. "Bu, regional ölkələrin təhlükəsizliyini ciddi şəkildə təhdid edir və geosiyasi qarşıdurmanı gücləndirir", - nazirliyin sözçüsü Lin Jian mətbuat brifinqində deyib. Çin Müdafiə Nazirliyinin sözçüsü Vu Qian də Manila və Vaşinqtonun "bölgəyə böyük müharibə riskləri" gətirdiyini söyləyib. Filippinin xarici işlər Nnziri Enrike Manalo çinli həmkarını ölkəsində raket sisteminin mövcudluğunun Çin üçün heç bir təhlükə yaratmayacağına və regionda sabitliyi pozmayacağına əmin etməyə çalışsa da, Pekin buna inanmır.

Son aylar Çinlə Filippin gəmiləri birbirlərinə çox yaxınlaşıblar və bu iki ölkə arasında toqquşma risqini artırıb. Filippin rəsmiləri, Filippin və ABŞ qüvvələrinin Luzon adasının şimalında, Cənubi Çin dənizinə baxan və Tayvan boğazına yaxın olan raket sistemi ilə məşq etməyə davam etdiklərini söyləyiblər. Halbuki, birgə təlimlər başa çatıb. Buna baxmayaraq, Filippin ordusunun sözçüsü, polkovnik Louye Demala "Reuters" agentliyinə bildirib ki, raket sisteminin nə qədər qalacağına qərar vermək Filippin səlahiyyətlilərinə bağlıdır.

Raket sistemlərinin geri qaytarılmasının əleyhinə olan Filippin bununla Çini çəkindirmək siyasətinə üstünlük verir. Bununla ABŞ Hind və Sakit Okean bölgəsində müttəfiqlərinin hərbi gücünü artırmış olur. Filippin Çinlə qarşıdurma istəmir. Manila və Pekin Cənubi Çin dənizində mübahisələrin necə idarə olunmasına dair bir sıra müzakirələr aparıblar. Ancaq bu müzakirələrdən nəticə yoxdur.

Bu arada, Vaşinqton Çinlə kiber müstəvidə də mübarizəsini davam etdirir. Birləşmiş Ştatlar Amerika infrastrukturuna, eləcə də internetə qoşulan müxtəlif cihazlara daha da sızmaq üçün Çinə yönəlmiş hakerlər tərəfindən botnet kampaniyasını müəyyən edib və ləğv edib. ABŞ Federal Təhqiqat Bürosu direktoru Kristofer Vray Vaşinqtonda keçirilən kiber sammit zamanı Çinin kiber müstəviyə müdaxilələrinə qarşı mübarizəni genişləndirdiklərini bildirib. Wray bildirib ki, "Integrity Technology Group" adlı informasiya təhlükəsizliyi şirkəti adı altında işləyən hakerlər korporasiyalardan, media qurumlarından, universitetlərdən və dövlət qurumlarından məlumat toplayıblar. Adəti üzrə Çinin Vaşinqtondakı səfirliyi ABŞ-ın ittihamlarını rədd edib. Çin səfirliyinin sözçüsü Liu Pengyu "Amerikanın Səsinə" göndərdiyi yazılı cavabda "FTB-nin əsassız iddialar əsasında əldə etdiyi nəticələrin" yanlış olduğunu bildirib.

**Hazırladı: KƏNAN**

# "Yalnız nüvə silahı, başqa variant yoxdur"

## Rus hərbi ekspert: "NATO ilə adi silahlarla döyüşə bilmərik"

**"Rusiyanın NATO ilə real qarşıdurmada qalib gəlmək şansı yoxdur". Bunu Kremlə yaxın hərbi ekspert Mixail Xodaryonok Vladimir Solovyovun verilişində deyib.**



O, qeyd edib ki, NATO ölkələrinin Rusiyanın hərbi-iqtisadi imkanları ilə müqayisə olunmayacaq qədər güclü potensialı var və buna görə də onunla nüvə silahından istifadə etmədən müharibə aparmaq mümkün deyil: "Bütün mövqelərdə NATO-nun bir neçə dəfəlik üstünlüyünü nəzərə alsaq, bizim tərəfimizdən hər hansı bir hərbi qarşıdurma son dərəcə səmərəsiz olacaq. Ona görə də NATO ilə istənilən qarşıdurma yalnız nüvə silahı ilə mümkündür. Başqa variant sadəcə, yoxdur".

Onun dediyinə görə, "müharibənin əsas qanunu" deyilən bir konsepsiya var və orada deyilir ki, silahlı mübarizənin gedişatı və nəticəsi tərəflərin hərbi-iqtisadi potensialının məcmusu ilə müəyyən edilir: "Ancaq əgər NATO hərbi təşkilatı bizdən bəzi göstəricilərə görə, hətta iki-üç dəfə üstündürsə, o zaman bizim yalnız adi silahlarla belə silahlı qarşıdurmaya girməyimiz tamamilə əbəsdir".




# Zelenskinin "qələbə planı"nın 4 bəndi...

## "O, Amerikanın Ukraynaya dəstəyini "Trampdan qorumaq" istəyir"

**Volodimir Zelenski ABŞ-ı tez bir zamanda Ukrayna üçün təhlükəsizlik zəmanəti verməyə çağıracaq. Bu, ondan ötrüdür ki, Donald Tramp seçkidə qalib gələrsə, Ukraynanı əlverişsiz sülh sazişinə məcbur edə bilməsin.**

"The Times" nəşrinin Ukrayna mövzusunda dərc etdiyi son məqaləsində belə deyilir.

Qəzet yazır ki, Zelenski Rusiyanı Ukrayna ilə danışıqlara başlamağa məcbur etmək üçün hazırlanmış "qələbə planı"nı təqdim etmək məqsədilə Nyu-Yorkdakı BMT Baş Assambleyasına, daha sonra isə Vaşinqtona gedəcək: "Zelenski Amerikanın Ukraynaya dəstəyini "Trampdan qorumaq" istəyir. Zelenskinin təhlükəsizlik zəmanəti çağırışı Ukraynanın NATO-ya xüsusən də müttəfiqlər arasındakı fikir ayrılıqlarına görə qəbul edilə bilməyəcəyini təsdiqləyir".

Qəzetin yazdığına görə, müzakirələrdə iştirak edən Qərb diplomatlarından biri qeyd edib ki, Amerikada keçirilən prezident seçkiləri təkcə Ukrayna üçün deyil, Putin üçün də böyük əhəmiyyət kəsb edir: "Putin üçün seçkinin nəticəsi onun öz hesablamalarında ən vacib element olacaq... Əgər ruslar belə qənaətə gəlsələr ki, Vaşinqtonda Ukraynanı dəstəkləyən hökumət olacaq, bu, onların mümkün danışıqlara münasibətini mütləq dəyişəcək. Amma hiss etsələr ki, bu, onlara böyük ehtimalla ucuz çıxış yolu təklif edən Donald Tramp olacaq, o zaman hər şey bitəcəkg".

Yazıda Zelenskinin planının dörd əsas bənddən ibarət olduğu qeyd edilir:

1.Qərbdən NATO-ya daxil olarkən qarşılıqlı müdafiə paktına bərabər təhlükəsizlik zəmanəti istəmək.

2.Ərazi "kozırı" kimi Ukraynanın Rusiyanın Kursk vilayətində əməliyyatının davam etdirilməsi.

3.Ukraynaya "xüsusi" müasir silahların verilməsi tələbi.

4.Dağılmış Ukrayna iqtisadiyyatı üçün beynəlxalq maliyyə yardımı.

Qəzetin yazdığına görə, Bayden çətin ki, Ukraynaya uzun mənzilli raketlərdən, o cümlədən Britaniyanın "Storm Shadow" raketindən Rusiya ərazisində istifadə etməyə icazə versin. NATO-nu təmsil edən üçüncü ölkədən olan diplomat qəzetə deyib ki, "Bu, həqiqətən də Britaniya-Amerika birgə qərarı olmalıdır". Lakin o, xəbərdarlıq edib ki, "ruslar və Putin tərəfindən təhlükə səviyyəsi heç vaxt bu qədər böyük olmayıb və əsas problem isə odur ki, biz əsl "qırmızı xətlər"in harada olduğunu bilmirik".

NATO diplomatı onu da etiraf edib ki, istənilən danışıqlar "Ukrayna üçün çox, çox, çox çətin və ağrılı olacaq, aydındır ki, ukraynalılar rusları öz ölkələrindən sıxışdırıb çıxara bilməyəcəklər".

Lakin onun fikrincə, Trampın "vitse-prezidenti" Vensin təklif etdiyi kimi, hazırkı cəbhə xəttində müharibəni dondurmaq və Ukraynanı bloklara qoşulmamağa məcbur etmək Kiyev üçün "fəlakətli nəticə olardı": "Bu, şübhəsiz ki, danışıqlar üçün əsas ola bilməz".Xatırladaq ki, son vaxtlar Ukrayna ilə Rusiya arasında danışıqların mümkünlüyünə dair bəyanatlar çoxalıb. Lakin Zelenskinin sözlərinə görə, söhbət Ukraynanın ədalətli qələbə istəyində deyil, Kremlin ümumiyyətlə, hər hansı ağlabatan şərtlərlə hərbi əməliyyatları dayandırmaq istəyinin olmamasındadır.

**C.MƏMMƏDOV**

# Sabunçuda şok olay

## Yeni "yığım kampaniyası"na başlayan icra başçısı vətəndaşların torpaqlarını təkrar onlara satır

**Sabunçuda Azərbaycan tarixində misli bərabəri olmayan biabırçılıq yaşanmaqdadır. Belə ki, Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev bir neçə aydır ki, yeni "yığım kampaniyası"na başlayıb.**

Bu sözlər Sabunçu sakini Nazim Əliyevin "Hürriyyət"in elektron poçtuna göndərdiyi yazıdandır.



Rayon ərazisindəki bütün torpaqları son qarışına kimi sataraq 100 milyonlarla vəsait əldə edən Adil Vəliyev, bugünlərdə vətəndaşların əmlakına kütləvi şəkildə əl qoymağa başlayıb. Belə ki, həyət evlərində məskunlaşan, habelə torpaq üzərində yardımçı təsərrüfatı, obyekti, qarajı olan şəxslərdən bu torpaq və obyektlərin sənədini tələb edən icra hakimiyyəti, sovet dönəmindən qalan sənədləri tanımadığını bildirib. Ələkbər adlı məmur-qoçunu yeni yığımkampaniyasına rəhbər təyin edən Adil Vəliyev, bəyan edib ki, artıq SSRİ mövcud olmadığı üçün sovet dövründə verilən bütün mülkiyyət şəhadətnamələri öz hüquqi əhəmiyyətini itirib. Buna görə də icra hakimiyyətinin həmin obyektləri qanunsuz tikili kimi sökmək, torpaq sahələrini isə müsadirə etmək hüququ mövcuddur.

İcra hakimiyyəti tərəfindən irəli sürülən bu absurd iddia vətəndaşların ciddi etirazına səbəb olub. Xüsusilə də, obyekti sökülən vətəndaşlar bunu xüsusi mülkiyyətə, eləcə də mülkiyyət azadlığına qarşı qəsd kimi dəyərləndirib.

Vətəndaşlar qeyd edir, icra hakimiyyəti əlində sovet dönəminə məxsus mülkiyyət sənədi olan şəxslərə bildirir ki, söküntü və müsadirə prosesinin qarşısını almağın yalnız bir yolu var. Bu yol da vətəndaşın həmin ərazi və ya obyekt üçün icra hakimiyyətinə pul ödəməsindən keçir. Başqa sözlə desək, Sabunçu Rayon İcra Hakimiyyəti vətəndaşı sahibi olduğu torpaq və obyekti yenidən almağa məcbur edir ki, bu da vətəndaşın mülkiyyət hüququna təcavüzdən başqa bir şey deyil.

Vətəndaşlar bütün əlaqədar qurum və yetkililəri Adil Vəliyevin qanunsuz əməllərinin qarşısını almağa çağırır və ümid edirlər ki, gec də olsa Sabunçu Rayon İcra Hakimiyyətinin biabırçılığınınqarşısını almaq üçün əməli addımlar atılacaq.

**"Hürriyyət"**

**Redaksiyadan: Yazıda gedən fikirlərlə bağlı qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

Gəncə şəhər sakini, II Qarabağ müharibəsi iştirakçısı, qazi İsmayılov Elşən Arzuman oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, ona sərəncamla verilən torpaq sahəsini keçmiş icra başçısı Elmar Vəliyevin oğlu Elmir Vəliyev ələ keçirib. Qazi problemin həll olunması üçün saytımız vasitəsilə Azərbaycan Respublikası Baş prokurorunun müavini Xanlar Vəliyevə müraciət edir:



# Elmar Vəliyevin oğlu qazinin torpağını zəbt edib

## "Mənə deyirlər ki, Elmir Vəliyev sifarişlə adam öldürəndir, ondan uzaq dur"



"Qeyd edim ki, sərəncamla əlimdə 116.0 kv metr torpaq sahəmiz var. Qanuni sənədim olsa da, keçmiş icra başçısı Elmar Vəliyevin oğlu Elmir Vəliyev həmin torpaq sahəsini əlimdən almaq istəyir.

Dəfələrlə müraciət etmişəm, bildirmişəm ki, bu yer mənimdir, imkan verin mən də bu yerdən faydalanım. Yarımcan adamam, ən azından sən evində rahat yatanda mən canımı qoymuşam, bir gözümdən olmuşam. Mən heç kəsin yerini, məkanını zəbt etmirəm. Mənim olana sənəd çıxarmaq istəyirəm, əlimdə sərəncamım var.

"Grand bazar"ın rəhbəri Mahmud bəy məni təhdid edir, görüşünə qəbul etmir. Mənə deyirlər ki, "Elmir Vəliyev sifarişlə adam öldürəndir, ondan uzaq dur". Belə çıxır ki, mən haqqımı hansısa məmur balasına verməliyəm. Oddan, topdan, tüfəngdən qorxmayan oğlan heç harınlamış məmur balasının qarşısında acız qalarmı?!

Onu da deyim ki, Daşınmaz Əmlak Komitəsinin keçmiş müdiri Kərəm Həsənovla Elmar Vəliyev qudadır. Özləri verdiyi sərəncamı bu gün "düzgün sənəd saymırlar". Biz oranı pulsuz almamışıq, pulumuzu verib almışıq.

Hörmətli Xanlar Vəliyev!

Əminəm ki, sizin bu məsələdən heç xəbəriniz də yoxdur. Onu da bilirəm ki, Azərbaycanın bütövlüyü uğrunda canından, qanından keçmiş qazilərə və şəhidlərə necə hörmət edirsiniz. Mən müharibə iştirakşısı, 1 qrup əlil kimi, sizdən xahiş edirəm, sizin adınızla məni təhdid edənlərə qarşı bir tədbir görün.

Torpağa sənədi Elmar Vəliyevin müavini Məharət bəy verib. İndi Zaur adlı şəxs bizim qarşımızı kəsirərək, öz qanuni ərazimizə buraxılmırıq. Bizim çörək pulu qazanmağımıza mane olurlar. Səlahiyyətli qurumlara müraciət edirik: biz sizin başınızı düşmən qarşısında uca etdik, siz də bizim haqqımızı tapdalamaq istəyənlərə mane olun".

Yazıda adı keçən şəxslərlə əlaqə saxlamağa çalışsaq da, zənglərimiz cavabsız qaldı.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Məhkəmə qərarı olmadan heç kəsin pensiyası kəsilə bilməz

## 51 il iş stajlı müəllimin pensiyasının "monitorinqlə" azaldılması qanunsuzdur

**"Hürriyyət" media orqanında 51 il iş stajı olan müəllimin pensiyasının kəsilməsindən yazıya ƏƏSMN-in cavabı bir daha ölkədə qanunun , Konstitusiyanın yox, məmur özbaşınalığının ən yüksək qüvvədə olmasını ortaya qoyur.**

Fikir verin, vətəndaşın pensiyasının "şəffaflıq monitorinqi ilə" (?) azaldıldığı bildirilir. Bəyəm sosial müdafiə, pensiya təminatı məmurlarının "monitorinq" qərarı qanundan üstündür? Əlbəttə, ritorik sualdır, Azərbaycanda ən yüksək hüquqi qüvvəyə malik olan qanun Konstitusiyadır və Konstitusiyanın 149-cu maddəsinə görə, qanunların tətbiqi və icrası vətəndaşlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir. Bəs pensiya təminatı sahəsində münasibətləri tənzimləyən "Əmək pensiyaları haqqında" qanun nə deyir?

"Əmək pensiyaları haqqında" 07.02.2006-cı il tarixli, 54-IIIQ saylı Qanunun 39.1 maddəsini "monitorinq" məmurlarının diqqətinə çatdırırıq: "... Artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləği ƏMƏK PENSİYAÇISININ RAZILIĞI İLƏ əmək pensiyasını təyin edən orqanın QƏRARI əsasında, RAZILIĞI OLMADIQDA MƏHKƏMƏ QAYDASINDA tutulur". Bəs niyə 51 il stajı olan müəllimin RAZILIĞI OLMADIĞI HALDA, pensiyası MƏHKƏMƏ QƏRARI OLMADAN azaldılıb? Bəyəm monitorinq qərarı məhkəmə qərarından üstündür? Vurğuladığımız kimi, yox! Bəs qanunun (düzgün) tətbiqinə, icrasına kim nəzarət edir? Ana Qanunun 133-cü maddəsinə görə, nəzarət funksiyası prokurorluq orqanlarının "monopoliyasındadır". Bəs niyə prokurorluq Konstitusiya ilə üzərinə qoyulan funksiyanı , görəvi icra etmir? Niyə ƏƏSMN-i "Əmək pensiyaları haqqında" qanunu düzgün tətbiq etməyə məcbur etmir?

Suallar çox, cavablar qanunsuz. Ya deyəcəklər mülki mübahisədir, məhkəməyə müraciət edilməlidir, ya da prokurorluğa aid deyil(?). Hər iki cavabın qanunsuzluğunu Konstitusiya doğrulayır. Birincisi, məhkəməyə pensiyaçı yox, pensiyanı özbaşına kəsən qurum müraciət etməlidir; ikincisi, prokurorluq mülki, inzibati, cinayət xarakterli olmasından asılı olmayaraq qanunun icrasını və tətbiqini təmin etməlidir.

Hesablama Palatasının, Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin, Ombudsmanın, məhkəmənin və s. və i.a ...da özbaşınalıqda özəl payı az deyil. Hamı pensiyaçıların pensiyasından "qızıl" payını götürüb, susur. Susmaqsa qızıldır. Konstitusiyada yazılmasa da, "korrupsiya qaydası"nda qüvvədədir.

**Məğrur BƏDƏLSOY**

# Borcunu tələb etdiyi üçün həbs olundu...



## 5 ildən çoxdur ki, qanunsuz olaraq həbsdə saxlanıldığını iddia edən Ədalət Məmmədov tərəfindən "Hürriyyət"ə növbəti məktub

**5 ildən çoxdur ki, Penitensiar Xidmətin 9 saylı Cəzaçəkmə Müəssisəsində günahsız yerə cəza çəkdiyini iddia edən Məmmədov Ədalət Məhərrəm oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına növbəti şikayət məktubu daxil olub. Şikayətçi saytımız vasitəsilə Prezident İlham Əliyevə, eləcə də digər aidiyyəti qurumların rəhbərlərinə müraciət edir. Həmin müraciəti olduğu kimi dərc edirik:**

**"Möhtərəm Prezident!**

Diqqətinizə çatdırım ki, 07.03.2019-cu il tarixindən hal-hazıradək günahsız olaraq həbsdə saxlanılıram. Belə ki, özüm zərərçəkən olduğum halda, mənə borclu olan şəxslərdən alınan rüşvət hesabına qanunsuz olaraq azadlıqdan məhrum edilmişəm. Çox təəssüf ki, aidiyyəti orqanlara ardıcıl olaraq yazdığım ərizə-şikayət-müraciətlərə indiyədək heç bir əsaslı cavab verilməyib.

**Hörmətli Prezident!**

İbtidai istintaq və məhkəmə proseslərində baş vermis analoqu olmayan qanun və hüquq pozuntularına dair tərəfimdən dəfələrlə sizlərə, eləcə də aidiyyəti qurumlara etdiyim çoxsaylı əriz-şikayətlərimə etinasız yanaşılaraq, cavablandırılmayıb. Hal-hazıradək də heç bir qanuni tədbir görülmədiyinə görə, yenidən Sizə açıq məktubla müraciət etməyə məcbur oldum.

Bildirmək istəyirəm ki, hazırda Neftçala RPŞ-də məsul növbətçi işləyən polis mayoru Şahmar Əhmədov tərəfindən 50 min dollar, anası Əhmədova Xanımqız Fərəc qızı tərəfindən isə 100 min ABŞ dolları (ümumilikdə 150 min dollar) həcmində pul vəsaitim dələduzluqla mənimsənilib. Mən qarşı tərəfdən pulumu tələb etdikdə isə, heç bir dəlil, sübut, fakt olmadan ziddiyyətli ifadələrlə barəmdə cinayət işi açılıb(mənə heç bir rəsmi məlumat göndəriş, məktub göndərilmədən və zəng edilmədən).

Haşiyə olaraq bildirmək istəyirəm ki, X.Əhmədovanın həyat yoldaşı Rövşən Əhmədov öz yaxın qohumunu əvvəl ölümlə hədələyib, sonradan 10 kq qızıl-zinət əşyalarını, əmlak və torpaq sahələrini ələ keçirib və bu səbəbdən də AR.CM-nin 132.221.177.178.179-cu maddələri ilə həbs edilib.

18.02.2018-ci il tarixdə Əhmədova Xanımqız Fərəc qızı guya mənim ona 62 min manat borclu olduğumu iddia edərək, DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə şikayət edib. Onun bu şikayəti baş müstəntiq Hacı Əfəndiyev tərəfindən araşdırılıb və iddialar təsdiqini tapmadığı üçün rədd edilib.

Sonradan Xanımqız Əhmədova yenidən əsassız olaraq barəmdə BMCMİ-yə şikayət edib və onların - Şahmar Əhmədov və anasının mənə 150 min dollar (245 min manat) borclu olduğu və bu pulu təsdiqləyən müvafiq sənəd, etibarnamə, şahid ifadələri, məhkəmə qərarı və şəxsin yazılı izahatı olduğu halda, barəmdə cinayət işi və ibtidai-araşdırma olmadan, 15.06.2019-cu il tarixdə qeyri-qanuni olaraq ölkədən çıxışıma məhdudiyyət qoyulub.

Daha sonra DİN-nin keçmiş əməkdaşı, polis polkovnik-leytenantı, mənə borcu və mənimlə ədavəti olan Qarayev Nizami Müslüm oğlu da bu işə cəlb edilərək, mənim saxta ittihamlarla həbsə atılmağıma şərait yaradılıb.

**Möhtərəm Prezident!**

Neftçala RPŞ-də məsul növbətçi işləyən polis mayoru Şahmar Əhmədov mənə olan borcunun qarşılığında pay torpaq sahəsi, maşın verəcəyini iddia etsə də, sonradan bunlardan da imtina edib. Bu baxımdan, Sizdən xahiş edirəm ki, mənə olan borcun qaytarılması, günahsız yerə həbsimə səbəb olan şəxslərin hüquq müstəvisində cəzalandırılması və barəmdə araşdırma aparılıb ədalətli qərar qəbul edilməsi üçün müvafiq orqanlara göstəriş verəsiniz".

**Hazırladı: LALƏ**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**



# "Baba Rzayevin qardaşı bizi təhdid edir..."

## Astara sakini "Azərenerji" ASC prezidentinin qardaşı Rahib Rzayevdən şikayətçidir

**Astara rayonu, Ərçivan kənd sakini Məmmədov Müseyib Valeh oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, aiddiyyatı qurumlar müraciətinə baxmır:**




"Bildirim ki, Xəzər rayonu, Zirə qəsəbəsində səhər saat 8-9 radələrində motosikletlə işə gedirdik. Normal sürətlə hərəkət etdiyim zaman qəfildən arxadan gələn avtomobil yanlış "manevr" etdi, qəza baş verdi.

Qeyd edim ki, heç kimim yoxdur, kirayədə qalıram. Beton işi görüb, günə 50-60 manat pul qazanıram.

Xəstəxanadan çıxandan sonra ayağım sarğıda idi. Həkim dedi ki, 20 gün ayağın sarğıda qalmalıdır. Mən 15 gün saxladım, baxanım yoxdur, ona görə məcbur idim.

Qəzaya düşməyimizə səbəb Ələddin adlı şəxs idi. O, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayevin qardaşı Rahib Rzayevin tanışıdır. Rahib Rzayev məni işə aparan motosikleti sürən Siman adlı şəxsi təhdid etdi. Dedi ki, əgər bu söhbəti dərinləşdirsəniz sizə böyük problem yaradarıq.

3 dəfə DİN-in 102 xidmətinə məlumat verildi. Xəzər Rayon Prokurorluğuna müraciət edildi. Bizə dedilər ki, ərizə yazmalısınız. İşimizə baxılmadı.

Mərdəkan Rayon Polis İdarəsindən gəlib boş kağıza qol çəkdirdilər. Bir neçə gün bundan qabaq intihara cəhd etdim. 150 dərman içdim, amma ölmədim.

Rəsmi qurumlardan mənim işimə baxılmasını xahiş edirəm.

Qeyd edim ki, qəza aptekin kamelarına düşüb. Sahə rəisinə də müraciət etdik. Ümumiyyətlə, 1 nəfər maraqlanmadı, axtaran olmadı. Burda insan həyatından söz gedir.

Uşağım dünyaya gəldi, heç onu görə bilmədim. Elə vəziyyətə qoydular ki, ayağımı, əlimi hər yerdən kəsdilər. Motosikletə də 500-600 manat ziyan dəyib".

**Aynurə İSMAYIL**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Bakı sakininin evinin qarşısında "piramida" tikdilər



## Tikili qanunsuz olduğu haqda qərar verilsə də, heç bir qurum sökmür...

**Bakı şəhər sakini Amanəliyev Elçin Balahüseyn oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, qanunsuz olaraq mənzilinin qarşısında obyekt tikilib. Obyektin sökülməsi üzrə aidiyyatı qurumlara müraciət etsə də, bu, mümkün olmayıb:**

"Qeyd edim ki, yaşadığım binanın qarşısında tikilən, sonradan sökülməsinə qərar verilən obyektin söküntüsü tam icrası olunmamışdır. Məsələ ilə bağlı FHN, Şəhərsalma İdarəsi ilə əlaqə saxlamışam. Sökülmə qərarı əlimdə olsa da, lakin səlahiyyətli qurumlar qərarsı icra etmirlər". Məsələ ilə bağlı Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Bizə bildirildi ki, 06 avqust 2024-cü ildə müvafiq qurumların iştirakı ilə divarın müəyyən hissəsi sökülmüşdür. Belə ki, tikilinin bir hissəsi kərpic materialından olduğundan sökülmüş, monolit dəmir beton konstruksiya olan digər hissənin həmin anda sökülməsi mümkün olmamışdır.

Şikayətçinin redaksiyamıza göndərdiyi fotoları da oxucularımıza təqdim edirik.

**Aynurə İSMAYIL**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**


Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi
Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi

# Dünyanı xofa salan

**Ötən həftə dünya mediasının diqqətini Livanda baş verən əməliyyatlar cəlb etdi. Əslində, bunu hərbi əməliyyat adlandırmaq da yerinə düşər. Hansı ki, bu əməliyyatlar zamanı "Hizbullah"a yaxın şəxslərin, guya, təhlükəsizlik məqsədilə istifadə etməyə üstünlük verdikləri peycerlər partladıldı. Livan və Suriyada yaşanan partlayışlar nəticəsində 3 mindən çox insan yaralandı. Livanın Səhiyyə Nazirliyi 12 nəfərin öldüyünü, 200-dən çox insanın yaralandığını və vəziyyətinin ağır olduğunu açıqladı. Qurbanlar arasında İranın Beyrutdakı səfiri də var idi. Belə ki, İranın diplomatik missiyasının rəhbərinin gözünü itirdiyini deyirlər.**



## Daha hansı ölkədə peycerlər, elektromobillər, skuterlər, elektrobuslar, ağıllı smartfonlar və s. kütləvi şəkildə partladıla bilər?!

Partlayışlardan sonra insanlar xəstəxanalara axışdı. İqtisadi-siyasi böhran yaşayan Livanda tibb müəssisələri qısa müddətdə öz imkanlarından artıq işləməyə başladı.

Partlayış qurbanlarının müalicə olunduğu xəstəxanalardakı yaralıların yaxınları bildirdilər ki, peycerə əvvəlcə mesaj gəlir və onu oxumaq üçün cihazı üzə yaxınlaşdıranda partlayış baş verir. Buna görə də qurbanların əksəriyyəti üz və əllərindən xəsarət alıb.

Bu hücumun necə mümkün olduğuna dair bir çox nəzəriyyə və fərziyyələr irəli sürüldü. Bəziləri İsrailin peycerlərə kənardan müdaxilə etdiyini və batareyaların partlamasına səbəb olduğunu deyir. Başqa bir versiyaya görə, "Hizbullah"ın peycerlər sifariş etdiyini öyrənən MOSSAD öncədən cihazların içərisinə partlayıcı yerləşdiribmiş. Eləcə də Tayvanda bir şirkət tərəfindən alınan peycerlərə partladılmamışdan əvvəl daşınma zamanı boşaldıldığı üçüncü ölkədə müdaxilə olunduğu iddia edilir. Tayvan şirkəti özünə haqq qazandırmağa çalışsa da, burada söhbətin hansı üçüncü ölkədən getdiyi barədə hələlik məlumat yoxdur.

Hücumdan dərhal sonra Rusiya ittihamla çıxış etdi. BMT isə "Hizbullah" və İsrail arasında gərginliyin artmasından narahat olduğunu bildirib.

Təbii ki, baş verənlər Amerika və Avropa mediasında ciddi müzakirə olundu. Vaşinqton bu ruhda bir bəyanat verdi: "Bizim bununla heç bir əlaqəmiz yoxdur, məsələ ilə bağlı məlumat toplayırıq". "Hizbullah" hücumdan sonra bəyanat yayaraq, "Bunun əvəzini İsrail ödəyəcək" ifadəsini işlətdi.

Şübhəsiz, çox mürəkkəb üsullarla həyata keçirilən bu əməliyyat keçən il oktyabrın 7-də HƏMAS-ın İsrail yaşayış məntəqələrinə hücumundan sonra başlayan dövrdə bölgədə gərginliyin daha da artmasına səbəb oldu. İndi Qəzza zolağında atəşkəslə belə aradan qaldırıla bilməyən gərginlik, Livan başda olmaqla, bütün tərəfləri içinə alıb. Bir neçə aydır ki, "Hizbullah"la müharibə vəziyyətində olan İsrail artıq toqquşmaların təkcə "Hizbullah"la məhdudlaşmayacağını və bütün Livana yayıla biləcəyi ilə bağlı açıqlamalar verir. Regional medianın xəbərlərinə görə, İsrail yaxın 4-6 həftə ərzində Livana qarşı böyük hücuma hazırlaşır.

Son həftələrdə bu rubrikada İsrailin şimal sərhədində "Hizbullah" və cənub sərhədində HƏMAS ilə davam edən toqquşmaların gedişatını dəyişdirmək üçün yeni strategiya hazırladığı bildirilir. Bu yeni strategiya çərçivəsində İsrail İrandan "Hizbullah" və HƏMAS-a gedən logistika yolunu kəsmək istəyir. Bu baxımdan, bir müddətdir ki, sözügedən marşrutun keçdiyi Suriya və Livana hücumların artması gözlənilirdi.

İsrailin ən yeni hədəfi olan Livan aylardır gərgin vəziyyəti nizamlamağa çalışsa da, beynəlxalq ictimaiyyət və region ölkələri də danışıqlar təşəbbüslərini gücləndiriblər.

Türkiyə nəşri olan "Evrensel" yazır ki, peycerləri partlatmaq üçün tərtib olunmuş çox mürəkkəb əməliyyat İsrail və "Hizbullah" arasında gərginliyin daha da artmasına səbəb olub. İsrail üçün yeni hədəfə çevrilən Livan, ABŞ-ın "buna heç bir aidiyyəti" olmadığı halda hər şeyi həll etməyə çalışır və aktiv şəkildə məlumat toplayır. Atəşkəs əldə etmək isə getdikcə çətinləşir.

Sözsüz ki, İranın önəmli silahlı gücü olan SEPAH da bütün döyüşçülərinə hər cür radio rabitəsindən istifadəni dayandırmağı əmr edib. Bunu "Reuters" İranın təhlükəsizlik mənbələrinə istinadən xəbər verir. Mənbələr bildirib ki, "Hizbullah" yaraqlılarının peycer və radio ötürücülərinin partladılmasından sonra SEPAH istifadə edilən bütün cihazları yoxlamaq üçün genişmiqyaslı əməliyyata başlayıb. Onun sözlərinə görə, SEPAH-ın istifadə etdiyi cihazların əksəriyyəti Çin və ya Rusiya istehsalıdır.

Bundan əlavə, mənbələr bildiriblər ki, SEPAH İsrailin təşkilata nüfuz etməyə çalışacağına dair narahatlıqlar səbəbindən bütün yaraqlıların bioqrafik məlumat yoxlamalarına başlayıb. Təşkilat eləcə də yaraqlıların bank hesablarını, onların dünya üzrə səyahət tarixçələrini, eləcə də ailə üzvlərini yoxlayır.

Ümumilikdə isə bu insident göstərdi ki, ağıllı smartfonlarla müqayisədə köhnə texnologiyalara dönüş heç nəyə zəmanət vermir və bu, bir daha kibertəhlükəszlikk problemini ön plana çıxarır. Eləcə də dünyanın yeni texnoloji inkişaf trendi olan, əsas iş mahiyyətini litium batareyalarının təşkil etdiyi elektriklə işləyən nəqliyyat vasitələrindən - avtomobildən, skuterlərdən, elektrobuslardan tutmuş telefonlara, elektron siqaretlərə qədər həyatımıza sirayət etmiş cihazlar nəinki təhlükəsizlik, hətta həyati önəm kəsb edir! Yəni belə anlaşılır ki, indiyə qədər yanacaqla işləyən avtomobillərin təbiətə zərərli olduğunu aşılayan təbliğat - təşviqat dünyanı yanlış istiqamətə yönləndirib və insanlığın mənfəətinə yox, hansısa güclərin mənfəətinə çalışıb.

Bəşəriyyətin yeni inkişaf trendi olan elektrikli avadanlıqlara tam keçid bir sıra mətbu nəşrlər tərəfindən araşdırılıb. Məsələn, VNIIPO tərəfindən hər il nəşr olunan "Yanğın və Yanğın Təhlükəsizliyi" statistik toplusunda elektron siqaretlər, mobil telefonlar, elektrik skuterləri və s. "digər məhsullar, cihazlar", lakin elektrik avadanlıqlarının müəyyən edilmiş tətbiqi sahəsində yanğın vəziyyətinin pisləşməsini və ya yaxşılaşmasını ortaya qoyan statistik göstəricilər cədvəli var. Qeyd olunur ki, XX-ci əsrin 70-ci illərindən Litium-ion batareyalarının inkişafı sürətlə irəlilədi. Enerji yükləyicisi kimi litium ionlarından istifadə edən təkrar doldurulan batareyaların ilk modelləri metal litiumdan hazırlanmış anod, titan disulfid və ya molibden disulfiddən hazırlanmış katodlu batareyalar olub. Daha sonra, 1980-ci illərdə, katod materialı litiyalaşdırılmış kobalt oksidə ($LiCoO_2$) dəyişdirildi. Bu tip akkumulyatorlar yüksək yanğın təhlükəsi yaradırdı, çünki onların doldurulması zamanı anodda yığılan litium ionları dendritlər (metal bığlar) adlanan ağaca bənzər strukturlar əmələ gətirirdi. Batareyanın təkrar doldurulma dövrləri nəticəsində dendritlərin aktiv böyüməsi və mənfi və müsbət elektrodlar arasında ayırıcı təbəqənin (separator4) zədələnməsi baş verdi. Bu, böyük miqdarda istilik yayılması ilə batareyanın qəfil boşalmasına (qısa qapanma) gətirib çıxardı. Temperatur 70-90 ▪C-ə çatdıqda, litium müxtəlif yanan qazların buraxılması ilə elektrolitlə (li-



# “peycer əməliyyatı”...

tium duzlarının məhlulu) qarşılıqlı təsir göstərməyə başladı. Reaksiya prosesi batareya qutusunun daha da istiləşməsinə kömək etdi və temperatur 180 ■ C-ə çatdıqda, kobalt oksidi (katod) litium ilə reaksiya verən oksigeni buraxaraq parçalanmağa başladı. Sonuncu, avtomatik alovlanma temperaturuna (179 ■ C5-dən) çatdıqdan sonra yanmağa başladı, qazların buraxılmasını artırdı və korpusun içərisində temperaturu artırmağa davam etdi. Nəhayət, batareya qutusunda zədələnmə baş verdi, ardınca alov və ya partlayış baş verdi.

Anod səthində dendritlərin əmələ gəlməsi ilə mübarizə cəhdləri bu günə qədər davam edir. Bu məqsədlər üçün alimlər elektrolit və litium metal anodun interfeysində müxtəlif növ örtüklərdən (plyonkalardan) istifadə etməklə, təbii passiv təbəqənin xüsusiyyətlərini yaxşılaşdırmaqla “metal bığlar”ın əmələ gəlməsini aradan qaldırmaq və ya yavaşlatmaq yollarını axtarırlar. Bərk elektrolit interfeysi litium-ion batareyasının ilkin doldurulması zamanı əmələ gəlir. Bəzi tədqiqatlarda akkumulyator elementlərinin təzyiqini (sıxlaşmasını) 350 kPa-a qədər artırmaqla dendritlərin əmələ gəlməsini və litiumun anod səthində demək olar ki, ideal paylanmasını aradan qaldırmaq mümkün olmuşdur. Dendritin böyüməsi səbəbindən qısaqapanma ehtimalını azaltmaq üçün təqdim olunan üsullar müasir elektrik nəqliyyat vasitələrinin gələcək inkişafı üçün vacibdir. Axı, litium metal anodlu batareyalar, qrafitdən hazırlanmış oxşar batareyalarla müqayisədə daha az çəkiyə malikdir və nəticədə avtomobilin ümumi çəkisinə təsir edəcəkdir.

1990-cı illərdə litium metal anod materialının qrafitə dəyişdirilməsi litium-ion batareyalarının yanğın təhlükəsini qismən azaltdı, lakin tamamilə aradan qaldırmadı. Dendritlərin əmələ gəlməsi başa çatdı, lakin daxili mexaniki qüsurlar və keyfiyyətsiz yığılma, həmçinin batareyanın doldurulması prosesində elektrolitin həddindən artıq istiləşməsi olduqda ”özünü sürətləndirmə” reaksiyası baş verdi.

Müasir araşdırmalar onda israr edir ki, bütün müasir litium-ion batareya növləri yüksək yanğın təhlükəsi yaratmır. Bunlara $LiCoO_2$ əvəzinə katodun litium dəmir fosfat $LiFePO_4$ və ya litium manqan şpinel $LiMn_2O_4$-dən hazırlandığı batareya variantları daxildir. Bu tip akkumulyatorlar daha ucuz, daha az zəhərli, daha istiliyə davamlı və ekoloji cəhətdən təmizdir. Yanğın təhlükəsizliyi nöqteyi-nəzərindən bu akkumulyatorlar alovlanmadığı və partlamadığı üçün istifadə üçün ən üstündür. Ammag

Bu görüş qəbul olunsa da, praktikada görünür ki, məsələ o qədər də sadə və bəsit deyil. Yeni litium-ion batareyaları hər kəsin düşündüyü qədər təhlükəsiz deyil və yanğın təhlükəsi yarada bilərg

Bundan başqa, bir müddət öncə Avstraliyanın Viktoriya ştatında dünyanın ən böyük enerji anbarı olan “Tesla Megapacks”da yanğın baş verdi. Bu da litium-ion batareyaların nə qədər təhlükəli, yaxud təhlükəsiz olduğu sualını yenidən gündəmə gətirib.

Avstraliyanın “EcoGeneration” saytındakı məqalədə qeyd edilir ki, bu cür batareyalar həqiqətən də müəyyən şəraitdə yanmağa meyllidirlər. Əsasən hazırlandıqları tərkibinə görə, litium-ion batareyanın bəzi alışan elementləri sadalanır. Məsələn, litium ionlarının keçdiyi maye elektrolit yaxşı yanır. Anoddakı qrafit və batareyanın izolyasiyasındakı plastiklə eynidir.

Bəs batareyalarda yanğın necə başlayır? “Bu, optimal iş şəraiti pozulduqda baş verir”, - deyən Avstraliya Milli Universitetinin dosenti və ANU batareyalarının saxlanması və şəbəkə inteqrasiyası proqramında akkumulyator materialları tədqiqatının rəhbəri Aleksey Qluşenkov prosesi belə izah edir:

“Batareyalar həddindən artıq istiləşməyə və həddindən artıq yüklənməyə həssasdır. Həddindən artıq istiləşmə əvvəlcə bir batareya hüceyrəsində baş verir, lakin tez bir zamanda paketdəki bütün digər hüceyrələrə yayıla bilər. Batareya istehsalçıları bunun baş vermə ehtimalını minimuma endirməyə çalışırlar. Təəssüf ki, “Tesla Megapack” ilə bağlı son hadisələr sübut etdi ki, təhlükəni tamamilə aradan qaldırmaq həmişə mümkün deyil.

Batareya hüceyrəsi həddindən artıq qızdıqda, onun içərisində qazlar yığılmağa başlayır. Onu şişirdirlər və nəticədə qabığın bütövlüyünü pozur, oksigenin daxil olmasına və yanğına səbəb olmasına şərait yaradırlar.

Bəs həddindən artıq istiləşmə necə baş verir? Həddindən artıq yüklənmə səbəbindən, bu da batareya hüceyrələrində arzuolunmaz kimyəvi reaksiyalara səbəb ola bilər ki, bu da yenidən yanğına səbəb ola bilər”.

Belə anlaşılır ki, bütün bunların ən çox yayılmış səbəbi qısaqapanmadır. Qluşenkovun fikrincə, bu, batareyanın zəif dizaynının və ya istehsal qüsurunun nəticəsi ola bilər. Batareyanın həddindən artıq doldurulması anodda litium metalın yığılmasına səbəb olduqda qısa qapanma molekulyar səviyyədə də başlaya bilər. Bu böyümələr sözdə dendritlərə çevrilir.

”Bu proses dəfələrlə təkrar olunduqca, dendritlər iki elektrod arasındakı ayırıcıya nüfuz edə bilər” deyə Qluşenkov izah edir: ”Bu, qısa qapanmaya səbəb olacaq və batareyanı dərhal boşaldacaq və çoxlu istilik əmələ gətirəcək.”

Şübhəsiz ki, yanğın riski narahatlıq doğurur. Ancaq daha böyük çətinlik odur ki, belə bir yanğını söndürmək o qədər də asan deyil. Bu, batareyaya daxil olan bütün kimyəvi maddələrlə bağlıdır. Bu kimyəvi maddələr batareya partlamazdan əvvəl yığılan qazlar yaradır.

Nyukasl Universitetinin professoru Pol Kristensen isə “The Financial Times”a deyib: ”Elektrikli avtomobil və ya enerji anbarında yanğınla necə mübarizə aparacağımıza dair qəti cavabımız yoxdur. Litium-ion batareyalar planetimizi karbonsuzlaşdırmaq üçün vacibdir. Lakin onların cəmiyyətə nüfuz etməsi onlarla əlaqəli risklər və təhlükələr haqqında faktiki biliklərimizi xeyli üstələyib”.

Belə güman etmək olar ki, yeni dövrün elektrikləşmə inqilabının gətirdiyi risk minimaldır. Əks halda, hər gün batareyanın yanması xəbərini eşidərdik. Ancaq əslində, Kristensenin fikrincə, son vaxtlar kifayət qədər çox batareya yanması baş verib. 2018-ci ildən indiyədək olan dövr üçün cəmi 38 fakt qeydə alınıb. O cümlədən, bu yanğınlardan biri Böyük Britaniyadakı Orsted akkumulyator anbarında və biri Arizonada “Arizona Public Services” tərəfindən idarə olunan batareya anbarında baş verdi.

Mütəxəssislərin fikrincə, riski azaltmağın yolu akkumulyator hüceyrəsində yığılan qazları tez bir zamanda buraxmaqdır. Bununla belə, tez buraxmaq yerinə yetirməkdən daha asandır. Bununla yanaşı, “The Financial Times”ın qeyd etdiyi kimi, risk yalnız litium-ion batareyaların, o cümlədən evdə istifadənin daha geniş tətbiqi səbəbindən artacaq.

Bəs belə olan halda, bəşəriyyəti potensial risk daşıyan elektrikləşmə trendinə sürükləməyin nə əhəmiyyəti var? Əgər sıravi insanın min bir məhrumiyyət və həvəslə pulunu yığıb aldığı elektromobil, insanları toplu halda daşıyan elektrikli avtobuslar onlar üçün nəqliyyat vasitəsindən çox “ölümə aparan vasitə”yə çevrilmək potensialı daşıyırsa, bu təbliğatın məqsədi nədir? Digər tərəfdən, arxa planda ABŞ-ın, ön planda isə İsrailin icraçısı olduğu Livanda peycer əməliyyatı belə texnologiyaların silah və qətl aləti kimi istifadə oluna bilməsi ehtimalının çox olduğunu göstərir. İqlimin korlanmasını önləmək üçün yeni texnologiya kimi təqdim olunan bu elektrikləşmiş sistemə keçid nəinki dövlətlərarası müharibələrdə, eləcə də insanların sui-qəsdlə aradan götürülməsi məqsədilə yeni üsul rolu oynayacaq.

**Ülviyyə ŞÜKÜROVA**

***P.S. Mövzunu davam etdirəcəyik.***



Avstraliyanın “EcoGeneration” saytındakı məqalədə qeyd edilir ki, bu cür batareyalar həqiqətən də müəyyən şəraitdə yanmağa meyllidirlər. Əsasən hazırlandıqları tərkibinə görə, litium-ion batareyanın bəzi alışan elementləri sadalanır. Məsələn, litium ionlarının keçdiyi maye elektrolit yaxşı yanır. Anoddakı qrafit və batareyanın izolyasiyasındakı plastiklə eynidir...




# Ucar sakini hərbi xidmətə necə "yararsız" oldu?

"Atası deyib ki, hərbi prokurorluq pula yaxın durmadı, nazirlikdə həll etdik"



**Ucar rayon, Rəstəcə kənd sakini Məmmədov Ramil Yasəf oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyətindən narazılıq edən şikayətçi yazır:**

"Qeyd edim ki, şikayət ərizəm əsasında Tərtər Hərbi Prokurorluğunda araşdırma aparıldı və Ucar rayonu, Rəstəcə kənd sakini Mehdiyev Zamiq Eldəniz oğlunun hərbi xidmətə tam yararlı olması subut olundu.Tərtər Hərbi Prokurorluğunun qərarı icra olunması üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə göndərildi. Ancaq çox təəssüf olsun ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəyyən vəzifəli şəxsləri ilə əlbir olub, hərbi xidmətə yararlı olan Zamiq Mehdiyevi yenidən hərbi xidmətə yararsız hesab ediblər. Bütün bunlar isə küllü miqdarda rüşvət hesabına başa gəlib. Çnüki Zamiqin atası Eldəniz Mehdiyev bu barədə rayonda danışıb ki, hərbi prokurorluq pula yaxın durmadı, nazirlikdə həll etdik.

Bəli, rüşvət hesabına Zamiq Mehdiyev qanunsuz olaraq yenidən hərbi xidmətə yararsız hesab edilmişdir. Bir daha qeyd edirəm ki, Mehdiyev Zamiq Eldəniz oğlu hərbi xidmətə tam yararlı və tam sağlam olsa da Səfərbərlik və Hərbi Xidmətə çağrış üzrə Dövlət Xidməti hərbi həkim komissiyası ilə əlbir olub onu qanunsuz olaraq hərbi xidmətə yararsız ediblər.

Bir daha qeyd edirəm ki, mənim şikayətimdən sonra Tərtər Hərbi Prokurorluğunda araşdırma aparıldı və subut olundu ki, Zamiq Mehdiyev onda olmayan xəstəliyə görə hərbi xidmətə qanunsuz olaraq yararsız hesab edilmişdir.

Azərbaycan qanunlarla idarə olunan demokratik dövlətdir, Ali Baş Komandan Prezident cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində güclü ordumuz var. Zamiq Mehdiyev kimi pul gücünə hərbiyə yararsız edilmiş şəxslər qanunlara tabe edilməli, onu hərbi xidmətə yararsız etmiş vəzifəli şəxslər isə qanun qarşısında cavab verməlidirlər.

Mən mətbuat vasitəsi ilə cənab Prezident İlham Əliyevə müraciət edirəm. Sizdən xahiş edirəm ki, şikayətimi obyektiv araşdırıb, Mehdiyev Zamiq Eldəniz oğlunu Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyində deyil, Bakı şəhərində ixtisalaşdırılmış xəstəxanada müasir aparatlar vasitəsi ilə müayinə edib hərbi xidmətə göndərilməsinə göstəriş verəsiniz və rüşvət alıb Zamiq Mehdiyevi yenidən qanunsuz hərbi xidmətə yararsız edən vəzifəli şəxslərin barəsində qanuni və ciddi tədbirlər görəsiniz".

**Hazırladı: LALƏ**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Özünüməşğulluq proqramı: kiçik biznesə çıxış imkanı



## Vətəndaşlarımız dövlətin onlar üçün yaratdığı bu imkandan faydalana bilir?

**Ölkəmizdə həyata keçirilən dövlət məşğulluq siyasətinin prioritetlərindən biri də qadınların əmək bazarında iştirak və məşğulluq imkanlarının artırılmasıdır. Bu istiqamətdə işlərin davamı olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2022-ci ildə 16,3 min qadın münasib işlə təmin olunub, 2,4 min qadın üçün peşə hazırlığı kursları təşkil edilib. Dövlət Məşğulluq Agentliyi tərəfindən bu istiqamətdə tədbirlərin davamı olaraq 2024-cü ilin 8 ayında 3176 qadın özünüməşğulluq proqramına cəlb edilib.**

Özünüməşğulluq proqramı işsiz qadınların da kiçik sahibkarlığa çıxışına dəstək üçün mühüm önəm kəsb edir. Maraqlidir, bəs, vətəndaşlarımız bütün bu imkanlardan faydalana bilirmi? Ümumiyyətlə, proqram çərçivəsində hansı sahələrə daha çox önəm verilir. Bu və digər suallara Dövlət Məşğulluq Agentliyi aşağıdakı kimi cavab verib:

"Sorğunuza cavab olaraq bildiririk ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən həyata keçirilən önəmli aktiv məşğulluq istiqamətlərindən biri özünüməşğulluq proqramıdır.

Özünüməşğulluq - şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir.

Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Özünüməşğulluq proqramı çərçivəsində Dövlət Məşğulluq Agentliyi tərəfindən kiçik biznesə başlamaq üçün istəyi, minimum potensialı, bacarıqları, təsəvvürü olan əmək qabiliyyətli, həmçinin məhdud əmək qabiliyyətli şəxslərin dövlətin dəstəyi ilə öz ailə təsərrüfatlarını, kiçik bizneslərini yaratmalarına dəstək göstərilir. Proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına birbaşa mal və materiallar formasında aktivlər verilir.

Özünüməşğulluq proqramına işsiz kimi qeydiyyata alınmış şəxslər (işsizlikdən sığorta ödənişi alan işsiz şəxslər istisna olunmaqla), eyni zamanda mülkiyyətində kənd təsərrüfatına yararlı pay torpağı olub, digər məşğulluğu olmayan, işaxtaran kimi qeydiyyata alınmış şəxslər müraciət edə bilər.

Özünüməşğulluq proqramı çərçivəsində vətəndaşlara kənd təsərrüfatı üzrə (iribuynuzlu, xırdabuynuzlu heyvandarlıq və arıçılıq) istehsal və xidmət istiqamətləri üzrə aktivlər təqdim edilir.

Özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqayisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Belə ki, proqram eyni vaxtda bir neçə makro məqsədlər istiqamətində paralel nəticələrin əldə edilməsinə imkan yaradır. Ümumilikdə isə özünüməşğulluq proqramının üstün tərəflərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması;
- Mikro və kiçik sahibkarlığın inkişafı;
- Yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması;
- İctimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılması;
- Yoxsulluq səviyyəsinin azaldılması;
- İqtisadiyyatda inkluzivliyin gücləndirilməsi.

Proqramın icrası zamanı üstün aşğıdakı kateqoriyalara aid vətəndaşlar hüquqa malikdirlər:

- Şəhid ailələrinin üzvləri;
- Ünvanlı dövlət sosial yardımı alan şəxslər;
- Əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar;
- 1 ildən artıq işsiz kimi qeydiyyatda olan şəxslər;
- Pensiya yaşına 2 ildən az qalmış şəxslər;
- Cəzaçəkmə müəssisəsindən azad edilmiş işsiz şəxslər.

Özünüməşğulluğun təşkili aşağıdakı mərhələləri əhatə edir:

- Özünüməşğulluğun təşkili ilə bağlı məsləhətlərin və məlumatların verilməsi;
- Əmək bazarının təhlili əsasında iqtisadiyyatın sahələri üzrə özünüməşğulluq istiqamətinin seçilməsinə və təşkilinə köməklik göstərilməsi;
- Özünüməşğulluğun təşkili üçün biznes-planın hazırlanmasına köməklik göstərilməsi, o cümlədən təlimlərin keçirilməsi və onların nəticələrinin qiymətləndirilməsi;
- Seçilmiş özünüməşğulluq istiqamətinin təşkili üçün işsiz şəxslərə natura şəklində material, avadanlıq və digər əmlakın (əmlak) 1 (bir) il müddətinə müqavilə əsasında verilməsi;
- Özünüməşğulluğa cəlb olunmuş şəxsin fəaliyyətinin 1 (bir) il müddətində dövri monitorinqi".

Qeyd edək ki, özünüməşğulluq proqramına cəlb edilən şəxslər aktivlərlə təmin edilməzdən əvvəl təlim kurslarına cəlb edilir. Proqram iştirakçılarına özünüməşğulluq istiqaməti üzrə nümunəvi biznes planın hazırlanması, özünüməşğulluq istiqaməti üzrə fəaliyyətin təşkilinə dair əsas biliklər, biznes fəaliyyətinin həyata keçirilməsi üçün hüquqi prosedurlar öyrədilir, motivasiya yönümlü təqdimatlar edilir, bazarlara çıxış imkanlarının artırılması və digər dövlət proqramlarından istifadə ilə bağlı perspektivlər izah olunur. Təlimlər bitdikdən sonra iştirakçıların özünüməşğulluq fəaliyyətinə başlamaq üçün hazırlığı qiymətləndirilir. Biznes planını uğurla müdafiə edən şəxslər əmlak formasında aktivlərlə təmin edilir.

Proqrama cəlb olunmuş şəxslərə aktivlər təqdim edildikdən sonra da onlara biznesin idarə edilməsi və inkişafı ilə bağlı müvafiq məsləhətlər verilir. Özünüməşğulluq fəaliyyətinin 1 il ərzində bu fəaliyyətin monitorinqi aparılır. Müqavilə müddətinin sonuna həmin şəxsin fəaliyyəti təqdim edilmiş biznes plana uyğun olduqda, verilmiş əmlak özünüməşğulluğa cəlb olunmuş şəxsin mülkiyyətinə verilir.

**Hazırladı: Aynurə İSMAYIL**

**P.S. Növbəti yazımızda Dövlət Məşğulluq Agentliyinin özünəməşğulluq proqramına cəlb olunan vətəndaşlarımızın bundan nə kimi fayda götürdükləri haqda suala cavab tapmağa çalışacağıq.**

Hürriyyət

Səhiyyə

SİZİN ÜÇÜN QƏZET

№36 (3327) 24 Sentyabr / 2024-cü il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Şəkər xəstələri üçün ayrılan dərmanlar satılır?

## Vətəndaşlar rəsmi qurumları ittiham edir, qarşı tərəf isə...

**Azərbaycanda ən geniş yayılmış xəstəliklərdən biri də şəkər xəstəliyidir. TəəSsüflə qeyd edirik ki, bu xəstəlikdə yaş həddi yoxdur. Şəkərli diabet insulin ifrazının, insulin təsirinin və ya hər ikisinin pozulması nəticəsində ortaya çıxan, qanda şəkərin miqdarının yüksəlməsi ilə gedən xroniki metabolik xəstəlikdir. Digər xəstəliklərdən fərqli olaraq, şəkər xəstələri hər gün iynə-dərman qəbul etməlidir. Əks halda vəziyyətləri ağırlaşa bilər.**



Redaksiyamıza şəkərli diabet xəstələrindən çoxsaylı şikayətlər daxil olur. Şikayətçilər iddia edirlər ki, onlara ayrılan dərmanları hər ay xəstəxanadan çox çətinliklə alırlar: “Bizi get-gələ salırlar, “dərman yoxdur” deyirlər. Nə “Amaril 4” var, nə də əvəzedicisi olan “Mepril 4” (Glimepiride). Yanvarın 5-6-da almalı idik, dedilər ayın 10-dan sonra gəlin, sonra dedilər 15-dən sonra olacaq. Amma hələ də verilmir. Bu gün də gedənlərə deyiblər ki, o dərmanlar hələ yoxdur. Səbəb də demirlər.

Hamımız şəkəri yüksək olan xəstələrik, belə əsəb keçirəndə daha da yüksəlir. Olmaz axı. Bir də görürsən, deyirlər ki, dərman az sayda gəlmişdi, tez gələn xəstələrə çatdı. Biz başa düşmürük ki, bu dərmanlar qeydiyyat sayına uyğun gəlirsə, hara yoxa çıxır?”.

Əlbəttə, xəstələrə maraqlı olduğu kimi, bu sual, yəni dərmanların hara “yoxa çıxması” bizə də maraqlıdır. Doğrudan da, bu dərmanlar xəstələrin sayına uyğun ayrılırsa, niyə çoxları bunu ala bilmir?

Xəstələrin bəziləri iddia edirlər ki, həkimlər dərmanı apteklərdən aşağı qiymətə ağır vəziyyətdə olan xəstələrə satırlar.

Şübhəsiz, redaksiyamıza çox sayda şikayət gəlirsə, mümkün deyil ki, mövcud durumdan Səhiyyə Nazirliyinin xəbəri olmasın. Əgər deyilənlər doğrudursa, Səhiyyə Nazirliyi hansı səbəblərə görə bu şikayətlərə biganə yanaşır?! Maraqlı suallar çoxdur, amma cavab verəcək səlahiyyətli şəxslər yoxdur.

Ümumiyyətlə, şəkərli diabet yaranma faktorlarına görə “Tip 1 DM”, “Tip 2 DM”, hamiləlik diabeti kimi bir neçə tipə bölünür. Əgər insulin çatışmazlığı varsa, yaxud da ümumiyyətlə insulin ifraz olunmursa, bu hal “Tip 1 DM”ə aiddir. Adətən, bu tip 30 yaşa qədər insanlarda rast gəlinir. Bura uşaqlar və yeniyetmələr də daxildir. Bu xəstələrin müalicəsində insulin inyeksiyalarının qəbulu və qidalanmaya diqqət etmək şərtdir. Həmçinin, fiziki aktivlik də önəmlidir. Çünki xəstə müalicə olunmadığı halda diabetik komaya girə, hətta ölə bilər.

“Tip 2 DM” isə insulinə qarşı müqavimətin və ya insulin sekresiyasının azalması il bağlıdır. Daha çox 30 yaşdan yuxarı və artıq çəkidən əziyyət çəkən insanlarda rast gəlinir. Bu tip xəstəlikdə genetik faktor çox böyük rol oynayır. Belə ki, əgər valideynlərdə şəkərli diabet varsa, uşaqlar 38 faiz risk daşıyırlar.

Xəstəliyin fəsadlarını araşdırmaqla bitməz. Bu, həmçinin risqli xəstəlikdir. O cümlədən, qohumları birinci dərəcəli şəkərli diabet olan şəxslər risk qurupuna daxildir. Eləcə də artıq çəkidən və yüksək qan təzyiqindən əziyyət çəkən, 4 kiloqramdan artıq uşaq dünyaya gətirən, az hərəkət edən, yaşı 45-dən yuxarı olan şəxslər də risk qrupuna aiddir.

Genetik faktor mühüm əhəmiyyət kəsb etsə də, şəkərli diabeti yaradan başqa səbəblər də var. Bura artıq çəki, oturaq həyat tərzi, sağlam qidalanmamaq kimi amillər daxildir. Genetik faktor mühüm rol oynadığından birinci dərəcəli qohumlarınız arasında şəkərli diabet xəstəsi varsa, həyat tərzinə, qidaya və çəkiyə xüsusi diqqət yetirməlisiniz. Lakin bu heç də o demək deyil ki, şəkərli diabet xəstəsi olan qohumunuz varsa, siz də mütləq bu xəstəliyə yoluxacaqsınız. Sadəcə, bütün ehtimallara qarşı özünüzü qorumağınızı tövsiyə edirik.

Keçək əsas məsələyə. Bəs bu xəstələr dərmanlarını rahat şəkildə xəstəxanalardan alıb müalicə oluna bilirlərmi?

Məsələ ilə bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ilə əlaqə saxladıq.

> “Hər ayın sonunda TƏBİB-in tabeliyində olan tibb müəssisələri tərəfindən təqdim edilən tələbnamə əsasında şəkərsalıcı dərman preparatları növbəti ayın əvvəlindən etibarən mərhələli şəkildə respublika üzrə paylanılır. Dərman təminatı tələbatdan asılı olaraq, növbəlilik prinsipi ilə həyata keçirilir”

Qurumdan sorğumuza belə cavab verildi: “Bildiririk ki, şəkərli diabetdən əziyyət çəkən vətəndaşlar üçün təyin edilən dərman preparatlarının təminatı ”Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 87 saylı qərarına əsasən həyata keçirilir. Sözügedən qərara əsasən, şəkərli diabet xəstələri üçün nəzərdə tutulan insulinin həcmi aylıq maksimal 1200 təsir vahidi, həblərinin yekun cəmi isə 60-dır.

Hər ayın sonunda TƏBİB-in tabeliyində olan tibb müəssisələri tərəfindən təqdim edilən tələbnamə əsasında şəkərsalıcı dərman preparatları növbəti ayın əvvəlindən etibarən mərhələli şəkildə respublika üzrə paylanılır. Dərman təminatı tələbatdan asılı olaraq, növbəlilik prinsipi ilə həyata keçirilir”.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzu ilə bağlı araşdırmamız davam edəcək.**

# “Zığ” Sağlamlıq Mərkəzində ağır şəkər xəstəsinə dərman verilmir

**Bakı şəhəri, Xətai rayonu, Zeytun küçəsi 39 ünvanında yaşayan Məmmədov Əhəd Hüseyn oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, şəkər xəstələrinə ayrılan dərmanlar düzgün paylanılmır:**



AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 09978285
Soyadı
MƏMMƏDOV
Adı
ƏHƏD
Atasının adı
HÜSEYN OĞLU
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,LAÇIN ray.
20.07.1960
I<AZEMAMMADOV<<AHAD<<<<<<<<<<<<<<<<<<
09978285<2AZE6007207M<<<<<<016L306A1

“Mən, Məmmədov Əhəd Hüseyn oğlu, 10 ildir ağır şəkər xəstəsiyəm. 6 ildir beyin insultu keçirmişəm, sol tərəfim işləmir.

Özüm “Zığ” Sağlamlıq Mərkəzində qeydiyyatdayam. Şəkər üçün insulin almağa gedirəm, 1 ampul verirlər. Əslində isə mənə 3 ampul verməlidirlər. İynə 12 ədəd verirlər, amma 100 ədəd verməlidirlər.

Gün ərzində 5 dəfə iynə vururam. 3 aydan bir də müalicə olunuram. Aldığım pensiya heç iynə-dərmanıma çatmır.

Xəstəxanaya iradımı bildirdikdə isə deyirlər ki, “yuxarıdan belə tapşırılıb”. Axı, bu qədər insanı ölümə göndərmək olmaz. Derdimizi kimə deyək, bilmirəm. Yuxarıdan tapşıranların evində şəkər xəstəsi yoxdur, heçmi halımızdan xəbərdar deyillər?!”

**LALƏ**

**Redaksiyadan: Mövzunu davam etdirəcəyik. Qarşı tərəfin mövqeyini də dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Valideyn-uşaq münasibəti necə olmalıdır?



**“Analar övladlarının qoruyucu mələkləridir”. Bu cümlənin açıqlaması o qədər böyükdür ki, bunu yazmaqla bitirmək olmaz. İlk dünyaya göz açdığımız vaxtdan ömrünün sonuna qədər həyatını övladlarına həsr edən qadına ANA deyilir.**

Hər bir ana adına layiq olan qadın, ona Allahın əmanəti olan övladını qoruyub, böyüdüb boya-başa çatdırmalıdır. Əlbətdə, belə bir deyimdə var ki, hər qadından ana olmaz. Uşağını atan anaları da az görmürük. Bu o demək deyil ki, məsuliyyətsiz anaların sayı çoxdur, xeyr, ömrünü-gününü övladlarına həsr edən anaların sayı çoxdur. Analar uşağı üçün arzuolunmaz təhlükə yarandıqda, düşünmədən onu qorumaq üçün özünü qurban verə bilər.

Ana sevgisinin formalaşması hamiləlikdən başlayır. Bu dövrdə yaşanan mühüm hormonal dəyişikliklər, ananı doğuşdan sonra körpəsi ilə əlaqə saxlamağa və onu qorumağa hazırlayır.

Ana - bətnində 9 ay, qəlbində son nəfəsinə qədər övladını sevgi ilə saxlayandır. Ana sevgisi saf, təmiz və əvəzsiz bir sevgidir. Onun sevgisindən zərrə qədər də şübhə duyulmaz, öz canından daha çox sevər öz övladını. Bir Ana övladının xoşbəxtliyi və səadəti üçün heç nəyi əsirgəməz, onun dərdlərinə dərman olar, çətin gündə ona həm də əsl dost olar. Anadır bizim ürəyimizə hər kəsdən yaxşı bələd olan.

Bir çox insanlarda inam hissi anadangəlmə mövcud olduğu üçün düşüncə tərzini və həyat haqqında baxışlarını dəyişərək özünə inamı yarada bilir. Uşaqlığını unutmuş olanlar, içindəki uşağı öldürmüş olanlar, öz uşaqlarının da uşaqlığını öldürmüş olurlar. Uşaqlar bizim gələcəyimizdir - deyib, gələcəyimizi parlaq qurmağa çalışmaq lazımdır. Ata-ana və uşaq münasibətlərinin sağlam təməl üzərində qurulması uşağın həm sosial, həm də zehni inkişafında xüsusi yer tutur. Həyata saf uşaq baxışları ilə baxmağa çalışa bilsək, o zaman ömrümüz cənnətə dönər.

### Ata sevgisi

Ataların övladları ilə fiziki təmas qurmasının, onlara toxunmasının, hətta qucaqlamasının uşaqların psixoloji və sosial inkişafına müsbət təsiri var. Atasıyla güclü bağı olan uşaqlar özlərini ifadə etdikdə, duyğularını bildirdikdə daha rahat olurlar.

Birlikdə vaxt keçirmək üçün ortaq mühit yaratmaq və uşağın nələri bəyənə biləcəyini təxmin etməyiniz onun özünü dəyərli hiss etməsinə səbəb olacaqdır. Uşaqla oyun oynayaraq zaman keçirmək və birlikdə müxtəlif məşğələlər təşkil etmək ata-övlad arasındakı bağlılığı artırmaq üçün ən yaxşı seçimdir. Bu vaxt aradakı yaş fərqinə yox, keçirilən zamanın keyfiyyəti və səmərəli olmasına diqqət yetirilməlidir.

### “Cəmiyyətimiz uşaqla necə davranmağı hələ də bilmir”

Bəs, günümüzdə valideyn-övlad münasibətləri nə dərəcədə qüsursuzdur? Övladlarımızı düzgün tərbiyə etmək üçün yetərli bilgiyə sahibik? Məsələ ilə bağlı psixoloq Vəfa Rəşidova ilə həmsöhbət olduq.

Psixoloq hesab edir ki, əslində, valideynlə övlad arasında olan, qurulan münasibəti bütün valideynlər, analar və atalar bilməlidir: “Sevgi bağları övladla valideyn arasında düzgün qurulmursa, təbii ki, burada aqressiv insan, sevgi doyumsuzluğu, eyni zamanda diqqət əskikliyi, panikatakt, nevroz kimi problemləri qabarda bilər. Biz illərdir bu haqda danışırıq. Dünən seans zamanı mən gördüm ki, ən azı 5 nəfəri valideyn sevgisizliyindən ağır depressiya yaşayan pasient idi. Adlarını qeyd etmədən deyə bilərəm ki, çalışdığım insanların sevgi doyumsuzluğundan əziyyət çəkdiyinə, valideynlə arada düzgün qurulmayan bağa görə, onlar bu gun ən çətin ən ağır psixoloji problemlər yaşayırlar. Bu o deməkdir ki, cəmiyyətimiz uşaqla necə davranmağı hələ də bilmir. Valideyn uşağına əşya kimi, top kimi baxa bilməz, yəni baxmamalıdır. Valideyn uşağına fərd kimi, şəxsiyyət kimi baxmalıdır. Onun fikirlərinə hörmət etməlidir. Onu maddi və mənəvi istismar etməməlidir. Çox hallarda uşaqlar valideyn tərəfindən mənəvi istismar olunurlar. Belə ki, aşağılanmış sözlər, təhqiramiz ifadələr eşidirlər. Uşaqların üzərində ağalıq edirlər, “ora olmaz”, “bura olmaz”, “onu etmə”, “bunu etmə” deməklə. Bu ifadələrlə uşağın qolun-qanadını sındırırlar. Beləliklə, uşaqlarda sosial fobiya yaranır.

Onu da qeyd edim ki, bəzən bu uşaqlar gizlin-gizlin seanslara gəlirlər. Valideynlər bunu özlərində etiraf edə bilməsələr də, özləri üçün ölçü götürməlidir. Fikirləşməlidirlər ki, mən övladıma belə qadağalar qoyaraq, önünü kəsərək, olmazları çoxaldaraq uşaqları özümüzdən uzaqlaşdırmış oluruq. Uşaqların bəziləri daha ağır psixoloji problemə sahibdirlər. Halbuki valideyn heç bunun fərqində də deyil. Ailə qurduqdan sonrada onun üçün problemlər, sıxıntılar bitmir. Uyğunlaşma çətin olur.

Övlad ailədə gördüyü münasibətdən aqressiv olur. Ailədə uşaq nə görürsə, mütləq şəkildə onu yansıdır. Bütün psixoloqlar və alimlər də bunu təsdiqləyirlər. Uşaq valideynin pis rəftarını, bəyənmədiyi hərəkətini gördükcə özü də valideyni kimi olur. Psixologiyada buna “koqnitiv dissonans” deyilir. Bəzən eşidirik, uşaq deyir ki, valideynim falçıya gedir, mənimlə kobud rəftar edir. Bir müddət sonra isə fikir veririk ki, valideynin etdiklərini eynən təkrar edir. “Nankor övlad”, “pis insan” belə yaranır. Çox uzağa getmədən, valideyn öz davranışlarına baxsa, uşağının niyə o vəziyyətdə olduğunu anlayar”.

### “Heç bir insan aqressiv doğulmur”

Psixoloq Gülnar Orucova da bu fikirdədir ki, hər bir uşaq ailənin güzgüsüdür: “Bəzən valideynlər elədiyi hərəkətləri uşaqlarına yanlış yöndə izah edirlər. Bizdə ən çox valideynlərdə yayındırmalar olur. Məsələn, nəyisə izah etmək yerinə, onu yayındırırlar. “Olmaz”, niyə olmaz, onu uşağa ətraflı izah etməyə sanki cəsarət etmirlər. Bu zaman da başqa məqamlar ortaya çıxır. Valideyn uşağın gözündə bəzən yalancı, bəzən bacarıqsız olur. Uşaq bunu az yaşlarda anlamasa da, yeniyetmə dövründə bunların hamısını dərk edir. Bir uşağın uşaqlıq vaxtı aldığı travması onu aqressiv edə bilər. Əlbəttə, heç bir insan aqressiv doğulmur.

Tərbiyə prosesi düzgün olmalıdır ki, aqressivlik olmasın. İnsanı mühit və ətrafındakı insanlar da aqressiv edə bilər. Son dönəmlərdə yeniyetmələrdə xüsusi bir aqressiya görünür. Bunun səbəbi də odur ki, əvvəldən valideyn övladının harasa tək getməyinə icazə vermir, “olmaz” deyir. Uşaq müəyyən bir yaşa çatdıqda isə bunu dava-dalaşla həyata keçirir. Bu zamanda düşünür ki, dava edərək bunu əldə edə bildimsə, deməli, hər şeyi belə əldə edə bilərəm. Uşaq öz dünyasında özünü böyük kimi təsəvvür etmək istəyir və atası kimi siqaret çəkməyə başlayır. Hətta geyim tərzini dəyişir, “avtoritet musiqiləri”nə qulaq asır, qəribə tatirovkalardan istifadə edir, bəzi “oğru” adlandırdıqları adamların şəkillərini üzərlərində gəzdirir, özlərini həmin insanlara bənzətməyə çalışırlar. Bu da uşaqda özgüvənsizliyin yaranmasına səbəb olur.

Bir uşaq aqressivdirsə, onun yaşadığı mühitə, dostluq etdiyi insanlara, baxmaq lazımdır. Bir də irsi, genetik xəstəliklərə baxmaq lazımdır. Bu hallar yeniyetmələri aqressiv edir.

Onu da qeyd edim ki, indiki valideynlər uşağa sevgidən başqa, hər şey verirlər. Övladına sevgisini sübut etməkdən ötrü onu gəzdirir, istədiyi telefonu alır, pul verir, amma övladına “səni sevirəm” sözünü demir və yaxud da demək istəmir. Bu da bir yaşdan, bir vaxtdan sonra problemlər ortaya çıxarmağa başlayır. Bu səbəbdən, çalışıb birinci övladımıza “səni sevirəm” sözünü deməliyik. Təəssüflə qeyd edirəm ki, avtoritar ailə modeli bizdə də var. Bu ailə modelində aqressiv uşaqlar ortaya çıxır. Çünki bu ailə modelində bir insan avtoritar olur, davamlı olaraq nələrisə uşağa zorla elətdirməyə çalışır. Buradan da aqressiv bir gənc, yeniyetmə ortaya çıxır.

Digər ailə modelləri də var. Məsələn, liberal ailə, hədsiz qoruyucu ailə, dəstəkləyici ailə tiplərində də fərqli uşaqlar yetişdirilir. Hədsiz qoruyucu tipində qorxaq uşaqlar ortaya çıxır, çünki uşağı o qədər qoruyur ki, uşaq qorxaq olur. Ən gözəl ailə tipi dəstəkləyici ailə tipidir. Bu ailələr uşağın hər yaxşı hərəkətinə görə onu mükafatlandırır. Pis hərəkətinə görə isə onu tənqid və ya təhqir etmir, onu başa salır. Liberal ailə tipində isə uşağa “yox” deyilmir, bu zaman da uşaq özbaşına kimi böyüyür. O, fikirləşir ki, nə istəsə edə bilər. Tərbiyədə bu ailə tiplərinin böyük rolu vardır.

Onu da qeyd edim ki, valideyn hər zaman “mənim övladım belə olmalıdır”, - deyə düşünür. Bu zaman isə yanlışa yol verilir. Bu o deməkdir ki, valideyn öz övladını modelləşdirmək istəyir. Biz onu modelləşdirə bilmərik. Uşağı özümüz olmadığımız şəxs kimi formalaşdırmaq istəyirik. Zaman dəyişir, biz artıq ona qarşı öz zamanımızın uşağı kimi davrana bilmərik.

Uşağı nələrdənsə geridə saxlamaq da olmaz. Düzdür, uşaqlar da bundan sui-istifadə etməməlidirlər. Hər şey qədərində olmalıdır. Uşağa nəzarət etməliyik, izlədiyi kinoları, cizgi filimlərini, oyunlarını nəzarətdə saxlamaq lazımdır. Çünki biz bəzən övladımıza yetəri qədər zaman ayırmırıq, bunun üçün də artıq övladımız bizə qarşı laqeyd olur”.



**Psixoloq Vəfa Rəşidova:** “Valideyn uşağına şəxsiyyət kimi baxmalıdır”



**Psixoloq Gülnar Orucova:** “Övladımıza “səni sevirəm” sözünü deməyi bacarmalıyıq”

**Jalə FAMİLQIZI**

*"Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq papaqçılıqdan"*

**Nizami Gəncəvi**

# Peşə təhsilinə maraq niyə azalıb?

## Təhsil eksperti Kamran Əsədov suallara aydınlıq gətirir...

Son illər ölkəmizdə müəllimlərin, hüquqşünasların, həkimlərin sayı durmadan artır. 50 il bundan öncə məktəbi bitirən gənclərin demək olar ki, yarıdan çoxu peşə ixtisaslarına yiyələnməyə çalışırdılar. Bunun üçün onlar xüsusi məktəblərə üz tuturdularsa, demək olar ki, indi şagirdlərin əksəriyyəti ali təhsil ocaqlarına yönəlir. Universiteti bitirib işsiz qalan gənclərin sayı isə hər il artmaqda davam edir.



Artan işsizlik, gənclərin ixtisas seçmələrində üzləşdikləri çətinliklər, müasir dünyanın tələblərinə cavab verən işçi qüvvəsinin azlığı peşə təhsili mövzusunu gündəmə gətirir.

Bəs, peşə təhsilinə maraq niyə azalıb?

Təhsil eksperti Kamran Əsədov "Hürriyyət"ə açıqlamasında bildirib ki, peşə təhsilinə marağın azalması Azərbaycanda və bəzi digər ölkələrdə həm sosial, həm də iqtisadi səbəblərlə izah olunur:

Ənənəvi olaraq, ali təhsilə yönəlmiş cəmiyyətlərdə peşə təhsili çox vaxt aşağı səviyyəli və ya az prestijli hesab olunur. Bu isə peşə təhsilinə olan marağın azalmasına gətirib çıxarır. Bu vəziyyəti geniş təhlil edərək, statistik məlumatlara əsaslanan müqayisə və dünya təcrübəsindən nümunələrlə peşə təhsilinin hazırkı vəziyyətini izah etmək olar.

### Sosial amillər

Peşə təhsilinə marağın azalmasının əsas səbəblərindən biri sosial amillərlə bağlıdır. Azərbaycanda və bir çox ölkələrdə valideynlər və gənclər ali təhsili daha prestijli və uğura aparan bir yol kimi görürlər. Bu düşüncə peşə təhsilini aşağı səviyyəli təhsil forması kimi qəbul etməyə səbəb olur. Azərbaycanda əksər valideynlər və gənclər universitet diplomunu iş həyatında vacib bir əsas kimi qəbul edirlər və bu, peşə təhsili üzrə mütəxəssis olmağı ikinci dərəcəli bir seçim kimi görməyə səbəb olur.

Prestij məsələsi: Peşə təhsilinin statusu azaldılmış qəbul edilir. Bir çox gənc və valideynlər peşəkar işçilərin və texniklərin rollarını dəyərsiz hesab edir, halbuki reallıqda bu işlər cəmiyyətdə və iqtisadiyyatda əvəzsizdir.

Ailə təzyiqi: Valideynlər çox vaxt övladlarının peşə təhsilindən daha çox ali təhsil almasını istəyir və onları bu istiqamətə yönəldir.

### İqtisadi səbəblər

Peşə təhsili ilə əlaqəli iqtisadiyyat faktorları da marağın azalmasına səbəb olur. Bir çox gənc, peşə təhsili aldıqdan sonra iş imkanlarının məhdud olacağına və ya az maaşla çalışacaqlarına inanır. Bu, aşağı gəlirli peşə sahələrinin cəlbediciliyinin azalmasına səbəb olur.

Maaş səviyyəsi: Peşə təhsili ilə əldə edilən ixtisaslar üzrə işçilərin maaşı bir çox hallarda ali təhsil məzunlarının maaşından aşağı olur. Bu da gənclərin iqtisadi cəhətdən daha cəlbedici olan ali təhsilə yönəlməsinə səbəb olur.

İş imkanları: Peşə təhsili alan şəxslər üçün bəzi sahələrdə iş



imkanları məhduddur və iş yerlərində yüksəliş perspektivi çox vaxt məhdud olur.

### Təhsil sisteminin strukturu

Azərbaycanda peşə təhsilinin strukturu və keyfiyyəti ilə bağlı müəyyən problemlər mövcuddur. Təhsil sistemində peşə məktəblərinin tədris proqramlarının köhnəlməsi, zəif təchizat və müəssisələrlə əməkdaşlığın az olması bu təhsil növünü az cəlbedici edir.

Müəssisələrlə əlaqənin zəifliyi: Azərbaycanda bir çox peşə məktəbləri müəssisələrlə kifayət qədər sıx əməkdaşlıq etmədiyindən, tələbələr təhsil aldıqdan sonra praktik iş yerləri tapmaqda çətinlik çəkirlər. Bu da peşə təhsilinin dəyərsizləşməsinə gətirib çıxarır.

İnfrastruktur və təlim keyfiyyəti: Peşə təhsilinin infrastrukturu bir çox hallarda müasir texnologiya və bazarın tələblərinə cavab vermir. Bu da tələbələrin müasir əmək bazarında rəqabət apara bilməməsinə səbəb olur.

### Statistik göstəricilər

Azərbaycanda peşə təhsilinə marağın azaldığını rəqəmlərlə də təsdiq etmək olar. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2020-ci ildə Azərbaycanda peşə təhsilinə daxil olan tələbələrin sayı təxminən 28 min nəfər idi. Bu, ali təhsil müəssisələrinə daxil olan tələbələrin sayına nisbətən xeyli aşağıdır.

2020-ci il statistikası: Azərbaycanda ali təhsil müəssisələrinə daxil olan tələbələrin sayı 46 min nəfəri keçirdi. Bu isə peşə təhsilinə daxil olan tələbə sayından iki dəfə çoxdur.

Peşə təhsili ilə məşğulluq arasındakı fərq: Azərbaycan əmək bazarında peşə təhsilli kadrların yalnız müəyyən sektorlarda yüksək tələbatı var. Məsələn, sənaye və texniki ixtisaslarda iş imkanları daha geniş olsa da, xidmət və ya kənd təsərrüfatı sahələrində bu təhsil alanlar üçün imkanlar məhduddur.



### Dünya təcrübəsi

Dünyada peşə təhsilinin daha yüksək səviyyəyə çatdığı və cəlbedici olduğu ölkələrdə uğurlu modellərə rast gəlinir. Məsələn, Almaniya və İsveçrə kimi ölkələrdə peşə təhsili çox yüksək səviyyədə təşkil olunur və əmək bazarında böyük əhəmiyyət kəsb edir.

Alman modeli: Almaniyada "dual sistem" adlanan model tətbiq olunur. Bu sistemdə tələbələr həm peşə təhsili müəssisələrində nəzəri biliklər əldə edir, həm də müəssisələrdə praktik təcrübə qazanırlar. Bu yanaşma peşə təhsili alan gənclərin məzun olduqdan sonra iş tapma imkanlarını artırır və iqtisadiyyatın tələblərinə cavab verir.

İsveçrə təcrübəsi: İsveçrədə peşə təhsili üzrə ixtisaslar çox dəyərli sayılır. Gənclər peşə təhsili alaraq yüksək maaşlı iş yerlərində çalışa və peşəkar sahədə sürətlə inkişaf edə bilirlər.

### Peşə təhsilinin bərpası yolları

Peşə təhsilinin Azərbaycanda yenidən populyarlaşması üçün müxtəlif addımlar atıla bilər:

Təhsil proqramlarının yenilənməsi: Peşə məktəblərində tədris proqramlarının müasir tələblərə uyğun yenilənməsi tələbələrin daha yaxşı ixtisas əldə etməsinə və iş bazarında rəqabət qabiliyyətinin artmasına kömək edəcək.

İş yerləri ilə əməkdaşlıq: Tədris müəssisələri ilə müəssisələr arasında daha sıx əməkdaşlıq qurulmalıdır. Beləliklə, tələbələr təhsil aldıqları dövrdə praktiki təcrübə qazanacaq və məzun olduqdan sonra daha asan iş tapacaqlar.

Cəlbedici təşviqlər: Peşə təhsili alan tələbələr üçün dövlət dəstəyinin artırılması, o cümlədən təqaüdlər və digər sosial dəstəklər peşə təhsilinə marağı artıra bilər.

Beləliklə, Azərbaycanda peşə təhsilinə marağın azalmasının əsas səbəbləri sosial qavrayış, iqtisadi amillər, tədris sisteminin problemləri və ali təhsilə yönəlik yüksək tələbatla bağlıdır. Lakin müasir dövrdə əmək bazarında ixtisaslı texniki işçilərə tələbat artmaqdadır və peşə təhsilinin keyfiyyətinin artırılması bu sahəyə olan marağı da artıra bilər. Peşə təhsili alanların məşğulluq imkanlarının və gəlir səviyyəsinin artması, bu sahənin cazibəsini yüksəltməklə yanaşı, iqtisadiyyatın da dayanıqlı inkişafına töhfə verə bilər.

**Hazırladı: Aynurə İSMAYIL**

Hekayə

# Əsgər və qız



Əsgər çopur daşdan tikilmiş binanın birinci mərtəbəsindən düşərkən ayağı büdrədi, asfalt səkinin üstünə çömbəldi. Bükülü şinelini cəld dizinin altına itələdi və dayandı. Hər iki qolu zərbədən titrədi. Qalxmağa cəhd etmək üçün nəfəsini aldı, irəli boylandı. Bu anda yumşaq əllər onu arxadan qucaqlayıb qaldırmaq istədi. Kim idisə taqəti bəs etmədi. Əsgər qanrıldı hiss etsin bu xeyirxah kimdir? On iki - on üç yaşlı məktəbli qız idi. Əsgər gülümsədi, boğuq səslə pıçıldadı:

- Sağ ol, qızım, - Əlini qızın saralmış ovcundan çıxarmağı bacardı. Əsgərin soldat köynəyindən asdığı medalları cingildədi, səsləri qızın qulağına çatdı. Əsgər ayağa durmaqdan vaz keçdi və tutqun səslə iki dəfə: “Uşaqlar, ölək vətən uğrunda, ölək vətəndən ötrü”. - Çığırdı. - Hə, qızım, vətən orada qaldı, mən buradayam, binanın qapısından içəri buraxmadılar, qovdular məni. Əlimlə gözlərimi göstərdim, sarışın qadın isə. - Əsgər sinədən öskürdü, onun sifəti qaraldı.

- Əmi, - deyə qız vahimə içində dilləndi və göyərmiş barmaqlarını əsgərin üzündə gəzdirdi.

- Qışqırma, öskürək səni boğur .

Əsgər təngənəfəslikdən qızaran gözlərindəki sarığını yoxladı. Onun başı qızın sinəsinə düşdü, xırıldadı, özünü sürüşkən asfalta yıxdı.

- Əmi, qalxın. - Qız bərkdən dilləndi. - Qalxın, asfalt soyuqdur.

- Yaxşı, qızım. - Əsgər xırıldadı və əlini cibinə apardı. - Hə, itirməmişəm “beşliyi”, cibimdədir. Qəlyənaltı uzaqda olmamalıdır, yadımdadır.

Qız şinelin üstündə oturmuş əsgərə zəndlə baxdı, başını onun sinəsinə söykədi, çiyinlərini qucaqladı. Əsgər uşaq əllərinin zəif hərarətini hiss elədi. Əsgər tərpəndi, ağır əliylə qızın saçlarını sığalladı.

- Ölmək cəbhədə şərəfdir, barı, günəşi görmək istərdim. Əsgər həyatı patava kimi bir şeydir, çıxardıb atırsan. - Əsgər dartılıb sakitləşdi. - Cibim dərindir, ancaq boşdur, o cavan oğlanın verdiyi “beşlik”dən savayı heç nə yoxdur. Olacaq! Haçan? Nazirin qəbuluna düşəndən sonra.

Ha, ha! Nazirin qəbuluna düşəndən sonra!

Bəzən əsgərdə elə daxili inam yaranır, o, hər istəyini yerinə yetirməyi bacarır. Əsgər bir anın içində elə şeylər yazar ki, gələcək nəsillər bu yazıları əsrlər boyu təkrar edərlər. Əsgər öz şüurunda dünyanın bütün duyğularını yerləşdirər, rastlaşdığı adamı başa salar, bundan ötrü peşimançılıq çəkməz. Əsgər cəbhədə təkbətək döyüşdə düşməni necə boğduğunu fəxrlə söyləyər.



Allahverdi Eminov

Qız baxıb gördü ki, əsgərin gözlərini örtən çirkli ağ tənzif sola sürüşübdür, qan ləkəsi üzüaşağı iz buraxmışdır. Cibindən dəsmalını çıxarıb yavaşca sildi, yerini nəfəsilə qurutdu. Əsgər bunu hiss edir, tərpənmirdi.

- Qızım, - əsgər soruşdu. - Yəqin ki, şəhərdənsən? Məktəblisən, eləmi?

- Beşincidə oxuyuram, atam cəbhədə vuruşur, ermənilərlə. Birinci Qarabağ cəbhəsində də orduya çağrılmışdı, ikincidə də özü könüllü getdi.

Əsgər qızı yanaşı oturmağa dəvət elədi, qız lal - dinməz əyləşdi, əlinin köynəyinin kürək nahiyyəsinə yapışdığını hiss etdi, əsgər möhkəmcə tərləmişdi. Qız əsgəri onun təkidiylə yeməkxananın qapı ağzınacan gətirdi.

- İstədiyiniz buradır, əmican. İçəridə oturanların səsi eşidilir.

- Sumkanı götürmüsənmi? - Əsgər əliylə arxanı göstərdi.

- Götürmüşəm, çiynimdən asmışam, - cavab verdi.

- Pulun varmı geri qayıtmağa? - Əlini cibinə atdı, “beşliy”i qıza uzatdı. - Al, içəridə yəqin mənə pul verən olacaq. “Uşaqlar, ölək Vətən uğrunda, ölək vətəndən ötrü”. - Əsgərin avazla oxuduğu bu sözlərə yeməkxananın sahibi bayıra çıxdı. Bir əsgərin şinelini çiyninə atdığını gördü və dərhal ona tərəf irəlilədi. Əsgərin hər iki gözünü ağ sarğı örtmüşdü, onun sifəti sərt və mülayim idi. Yeməkxana sahibinin ürəyi yüngülcə sancdı və əsgərin əlindən tutub içəri apardı. Əsgər əlində tutduğu “beşliy”i havada oynadırdı, astadan çığırırdı: - Mənə yardım edin, qardaşlar, bu pula heç nə vermirlər! - Əsgərin üzü qaralmağa başladı. Bunu görən yeməkxana sahibi əsgəri pəncərəyə söykənən stolun arxasında otuzdurdu:

- Darıxma, əsgər qardaş, hər şey yaxşı olacaq. - Əsgər bu sözləri eşitdi.

Əsgər öskürdü, sinəsini stola söykədi, təngənəfəsdən qızaran gözlərinin qapaqları aramsız çırpınırdı.

Üç nəfər cavan iştahla yeyir, maraqla əsgərə baxırdılar. Üç nəfərdən biri yerindən qalxıb “iyirimiliyi” əsgərə yaxınlaşıb ona uzatdı. Və sarğını indicə görüb geri çəkildi, pul barmaqları arasında titrəyirdi.

Bu vaxt dərisinə sığmayan pişik yerindən sıçradı, özünü əsgərin ayaqlarına sürtməyə başladı, əsgər pişiyin istisini duydu. Pişik astadan mırıldayır, qulaqlarını qırpırdı.

Pul verən oğlan qayıdıb yerində oturdu, rumkaya süzülən arağı lal - dinməz başına çəkdi, turş xiyardan bir dilim ağzına apardı. Onunla üzbəüz əyləşən, yanaqlarından qan daman oğlan yerində qurcalandı:

- Nahaq pul verdin, - dedi. - Əsgərlərə yaxşı baxırlar. Bu əsgər yəqin cəbhədən qaçıb, fərarilik edib. - Sözünə peşiman kimi onun alt dodağı titrədi, özünü ələ alıb dodağının əsəbi titrəməsini saxladı. Gənc və sərxoş olan üçüncü cavan nəsə fikirləşib əlini əsgər oturan stola sarı uzatdı:

- O, fərari deyil, - astadan dilləndi. - Fərari, ordudan yayınan bizik: mənəm, sənsən, odur. - Ayağa qalxdı, nə fikirləşdisə oturdu yerində. - Sənin daha bir qardaşını da əsgərlikdən saxlayıb atan. Atan hər gün toydadır, pul qazanır, özü də qarabağlıdır, Qarabağda doğulub.

Bu sözləri sanki onu ayıltdı, özünə qayıtdı, əlini cibinə apardı:

- Bu pulları mənim atam da qazanıb haram yolla! - Pulu xışmalayıb stolun üstünə səpələdi. - Bu pulları əsgərə verəcəyəm, - deyib yeməkxana sahibini əli ilə çağırdı. O isə əlindəki işi yarımçıq qoyub gəldi. - Bu pulları. - Cavan yanaşı oturan sol əliylə onun ağzını qapadı. - Pulları cibinə bas, - amiranə dilləndi. - Sözünü kəsdi.

Yeməkxana sahibi əsəblərini cilovlaya bilmədi, əlini sağ cibindən çıxartdı, qatlanmış bıçağı açmaq istədi, üçüncü cavan dərhal onun əlini saxladı.

- Bura yeri deyil.

- O, fərari deyil, cəbhədən qayıtmışdır, gözləri alovda qarsımışdır, “kantuziya” almışdır! Sənsən fərari, əclaf! - Ayağa qalxıb onun qolundan yapışdı, stolun arxasından qaldırıb özünə tərəf dartdı.

Oğlan: - Yaxşı, yaxşı, qələt elədim, - dedi. - Məni birinci dəfə görürsən? - Qızarmış gözlərini döyə-döyə yerində oturdu.

Yeməkxana sahibini bərk qəzəb bürüdüyü üçün boynunun ardı sızıldadı, - Sən dzertirsən, hər iki gündən bir burada məskən salırsan. Üçünüz də bir yuvanın quşusuz. Durun burdan, əkilin! Haqq - hesabınız da başınıza dəysin!

Əsgər səs - küyü eşidirdi, amma məsələdən xəbərsizdi.

Qəfildən hava dəyişdi, şimşək başladı çaxmağa, göyü parçaladı. Külək bulud qırıntılarını cənuba doğru qovurdu.

Əsgər mürgüləyirdi, yuxuda o, üzündə yüngül və xəfif yel duydu. Yuxunun içində onu bir qız öpür, qucaqlayır, buraxmırdı. Qızın dodaqları elə hərarət saçırdı, sanki günəşin şəfəqi gecənin qaranlığında əsgərin üzünə düşmüşdü. Qızın arıq əlləri əsgərin çiyinlərini elə qucaqlamışdı ki...

Əsgər oyandı, şaşqın nəzərlə yanında oturmuş yeməkxana sahibinə çevrildi:

- Şirin yuxu görürdüm, ata, tez oyandım, - deyib ayağa qalxmaq istədi.

- Oturan adamlar hara getdilər? - Əliylə şinelini axtardı. - Mən getməliyəm. Nazir nahardan sonra məni qəbul edəcəkdir, söz verdi.

- Bəlkə özüm kömək edim, sənə çətin olar, - yeməkxananın sahibi əsgərin qoluna girdi və qapıya qədər onunla addımladı.

Bina, hansı ki, nazirlik yerləşirdi - uzaqda deyildi. Bu vaxt xeyli aralıda daşın üstündə çantasına söykənən həmin qız əsgəri görcək yerindən atıldı və ona sarı özünü yetirdi.

- Əmican, mən burdayam, sizi gözləyirəm. - Saf səslə dedi. - Siz də sağ olun ki. - Fikrini tamamlaya bilmədi. Gücsüz, amma isti əllərilə əsgərdən yapışdı. Əsgər əlini havada yellədi və qışqırdı: “Uşaqlar, ölək vətən uğrunda, ölək vətəndən ötrü! Dövlət əsgərə arxalanır”.

Əsgər qızın qolundan tutub ehtiyatla addımlayırdı. Tez-tez təkrar edirdi: “Binaya çoxmu qalıb?” “Nazir məni qəbul edəcək!”

Qız özünü eşitməzliyə vurursdu: - Yorulmusan, əmican, - dedi. - Sumkasını çiynindən çıxardı, daşın üstünə qoydu. Binaya boylandı, mərtəbələrin pəncərələrindən işıq süzülmürdü.



# Üzeyir bəy nə düşünmüşsə, o da olacaq

**18 sentyabr ölkəmizdə Milli Musiqi Günüdür. Bu bayram dahi bəstəkarımız, Azərbaycan musiqisi deyildikdə ağla ilk gələn, hətta adı musiqimizin sinoniminə çevrilən Üzeyir bəy Hacıbəylinin doğum günü ilə bağlıdır.**

Üzeyir bəy Hacıbəyli sadəcə bir bəstəkar deyil, o, Cümhuriyyət quruculuğumuzda yaxından iştirak etmiş, siyasi, strateji ağlı ilə ağır dönəmlərə sinə gərərək həyatda qalmağı bacarmış, əməllərini yalnız Azərbaycan xalqından yana tutmuş bəstəkar, yazıçı, publisist, dramaturq, ictimai xadimdir. Onu tariximizin yaddaşına əbədi həkk edən həm də bu cəhətlərdir.

Üzeyir bəy şəxsiyyətdir. Dəyişən dünya fonunda qırılma dönəmini yaşayaraq, kimlik axtarışında olan musiqi mədəniyyətimizi toparlamaq, milli kimliyi bir əski qiyafət kimi kənara atmağı istəyənlərlə müasir çağa gözlərini qapamağı tərəf tutan qütbləşmiş mədəni cəmiyyət içindən o, "ya dostsan, ya düşmən", "ya bizdənsən, ya onlardan" deyimlərini kənara qoyaraq musiqimizdə yepyeni bir səhifə açdı. Dünya dəyişirdi, bunu XX əsrin başlanğıcı hər kəsə göstərdi. Həmin dövr üçün təkamül keçərək güc toplamış və cəmiyyətlərin istinadgahı olan Avropa mədəniyyətinin gözəl tərəflərini mənimsəməli olduğumuzu Üzeyir bəy anlayırdı. Özümüzü qorumağımız, var olmağımız üçün isə milli kimliyimizə sımsıx sarılmalı olduğumuzu da əyani sübut edirdi. Onun sübutları əsərləri idi: türk operası adlandırdığı "Leyli və Məcnun" və bu kimi daha beş opera, süjeti dastanlarımızın ən qədimlərindən olan, müqəddiməsi Azərbaycan xalqının azadlıq muradının simgəsinə çevrilən (ifadə Aydın K.Azimə məxsusdur) "Koroğlu" operası, "Arşın mal alan", "O olmasın, bu olsun" kimi havaları xalqımızın dilindən düşməyən musiqili komediyalar, mahnılar, marşlar, elmi məqalələr və "Azərbaycan xalq musiqisinin əsasları" tədqiqatı, bir də... dövlətimizin rəmzi olan Himn...

Mənə görə Üzeyir bəyin bizlərə əmanət etdiyi ən dəyərli miras Respublikamızın Dövlət Himnidir. Ölkəmizin bir nömrəli musiqi əsərinin də məhz himnimiz olduğunu düşünürəm.

Anamın oxuduğu laylalardan sonra uşaqlıq xatiratımdakı ilk musiqi parçası da odur. Televiziya ekranından hər səhər dalğalanan bayraq üzərində gurlayan "Azərbaycan! Azərbaycan!" kəlmələrindən necə də təsirlənmişdim. "Hifz etməyə müştaq olmağı" çox da yaxşı dərk etmirdi körpə düşüncəm, lakin bu ölkəni göz bəbəyi kimi qorumaq istəyi ürəyimdə kəpənəklər uçururdu. İrsi yaddaşım məni 1989-cu ilə, Azadlıq meydanına aparırdı. İzdihama yönəlmiş tribunadan elan edilən sözü Əhməd Cavadın, musiqisi Üzeyir bəy Hacıbəylinin olan "Azərbaycan Marşı" müstəqilliyin bərpası yolunda azadlığın ilk carçısı idi və o meydandan BBC, Voice of America, Deutsche Welle, Azadlıq radiosu vasitəsi ilə bütün dünyaya car çəkdi.

"Vaqif Səmədoğlu "himn"in sözləri Əhməd Cavadın, musiqisi Üzeyir bəy Hacıbəylinindir deyəndə alqış sədaları aləmi başına götürdü. Bir neçə dəqiqə alqış səsləri kəsilmədi. Mən bu alqışlarda Azərbaycan Xalq Cümhuriyyətinin bütün əzəmətini, möhtəşəmliyini, xalqımızın ona sonsuz məhəbbətini əyani surətdə gördüm. Alqış səslərinin müşayəti ilə "himn"in melodiyası - musiqisi səslənir. ... Bu əzəmətli musiqinin ilk sədalarından sonra "Azərbaycan! Azərbaycan!" deyən xorun səsi eşidildi. Yerdən yüz minlərlə adam ona səs verdilər. Sanki xalq bu sözlərin təşnəsi, acı idi. Sanki hamı illərlə görmədiyi əzizi ilə görüşür, ona qovuşurdu..." (Əli Saləddin. "Əhməd Cavad" (Azərbaycanın görkəmli adamları) Bakı. Gənclik, 1992)

"Azərbaycan marşı" Üzeyir bəy tərəfindən 1919-cu ildə bəstələnmişdir. Bəzi mənbələrə görə bu və bir digər "Milli marş"ın yazılmasına bəstəkar hələ 1917-ci ildə Yusif Vəzir Çəmənzəminlinin təklifi ilə başlamışdır. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası 1920-ci il 30 yanvar tarixli "Azərbaycan Respublikasının milli himni, dövlət gerbi və möhürü, hərbi ordenlərinin layihələrinin hazırlanması haqqında" qərarına əsasən Xalq Maarif Nazirliyi 19 fevral 1920-ci ildə "Azərbaycan" qəzetində müsabiqə elan etdi. Müsabiqənin 1 may tarixində yekunlaşması nəzərdə tutulurdu ki, nə müsabiqənin bitməsi, nə də arzulandığı kimi Azərbaycan Xalq Cümhuriyyətinin ildönümündə, yəni 28 may tarixində rəsmi himnin qəbul edilməsi qismət olmadı... (mənbə: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası)



Adı çəkilən hər iki marş 1966-cı ildə türk musiqişünası və bəstəkarı Etem Üngörün "Türk marşları" kitabında nəşr edilmişdir. "Ədəbiyyat və incəsənət" qəzetinin 14 iyul 1989-cu il tarixli sayında bəstəkar Sərdar Fərəcov "Üzeyir Hacıbəyovun iki marşı" adlı məqalə yazmış və hər iki əsərin tək səsli havasının notlarını təqdim etmişdir. Həmin məqalədəki "Azərbaycan Marşı" bəstəkar Aydın K.Azimin diqqətini çəkmiş və onun üzərində işləməyə başlamışdır. 1989-cu ildə ilk dəfə meydanda səslənən marş məhz Aydın müəllimin bərpa, xor və orkestr aranjimanıdır ki, o da 1992-ci il 27 may tarixli qərar ilə Azərbaycan Respublikasının Dövlət Himni olaraq qəbul edilmişdir. (mənbə: "Həyat" rəsmi dövlət qəzeti, 4 iyul 1992-ci il № 130 (384), "Azərbaycan Respublikasının Dövlət Himni haqqında")

Adı çəkilən hər iki marş 1966-cı ildə türk musiqişünası və bəstəkarı Etem Üngörün "Türk marşları" kitabında nəşr edilmişdir. "Ədəbiyyat və incəsənət" qəzetinin 14 iyul 1989-cu il tarixli sayında bəstəkar Sərdar Fərəcov "Üzeyir Hacıbəyovun iki marşı" adlı məqalə yazmış və hər iki əsərin tək səsli havasının notlarını təqdim etmişdir. Həmin məqalədəki "Azərbaycan Marşı" bəstəkar Aydın K.Azimin diqqətini çəkmiş və onun üzərində işləməyə başlamışdır...

Himn Nəva qərar səsli (re/d) Nihavənd makamında yazılmışdır. Vaxtaşırı əsərin minor makamında yazılması və buna görə də qəmgin xarakterdə olması iddiaları əsassız və gərəksizdir. Üstəlik heç bir makam hər hansı bir əsərin xarakterini müəyyənləşdirən ilk amil sayıla bilməz.

Himn siqnalla başlayır. Bu, dövlət himn və marşlarında önəmli cəhətdir. Siqnal həm kütlənin ayağa qalxması üçün bir xəbərdarlıq, həm də insanların (və ya xorun) doğru tonallığa köklənməsi üçün instrumental parçadır. Zaman-zaman himnin siqnalsız ifa edildiyinin şahidi oluram. Bu, əsərin təhrif olunmasıdır və Azərbaycan Respublikasının "Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununun 8.2. Maddəsi ilə qadağan edilmişdir.

Bir qədər himnin quruluşu üzərinə. Bəziləri mütəxəssislər himn janrının təntənəli mahnı olduğunu desələr də, əslində himn ilahidir. Antik mədəniyyətlərdə (Misir, Yunanıstan, Roma) tanrılara ünvanlanaraq oxunurdu. Qədim türklərdə bunlara "alkış" deyilirdi. (Ramil Aliyev "Türk mitolojisi" Astana yayınları. Ankara, 2020; Mahmud Kaşğari "Divani lüğət-it-türk" I cild. "Ozan" Bakı, 2006) Yəni əslində musiqi janrı olaraq himni mahnı ilə qarışdırmamalı: mahnının quruluşu bənd-nəqərat şəklindədirsə, himndə bu, fərqlidir. Dövlət himnimizin də strukturu bu baxımdan özəldir. Himndə Azərbaycan klassik muğam dəstgahlarının ümumi inkişaf yolu - pəsdən zilə doğru hərəkət - sezilir. Bu hərəkət himni dörd şöbəyə ayırır.

Zaman-zaman himn haqqında musiqiçilər və qeyriləri tərəfindən yuxarıda sadalanan və digər əsassız açıqlamalar edilmişdir. Bu baxımdan əsər musiqi tariximizdə ən çox hücuma məruz qalan nümunədir deyə bilərik. Bu cür məsuliyyətsiz davranışda bulunanlar ilk növbədə dövlət rəmzinə, daha sonra isə böyük dəyərimiz olan Üzeyir bəy Hacıbəyliyə həqarət etdiklərinin fərqinə vararlar deyə ümid edirəm. Hər kəsi "Musiqi Günü" münasibəti ilə qutlayır, yazımı isə bu fikir ilə bitirmək istəyirəm: Üzeyir bəy nə düşünmüşsə, o da olacaq.

**Leyla Həmid Əhməd Xan**